17_27 IYUl-QARA.qxd 5/30/2024 9:45 PM Page 1


# UNİKAL

№18 (2200) 31 may 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




# Bəzi özəl klinikalara "qara xəbər"



Səh.9

## Hikmət Hacıyev mina qurbanlarının son sayını açıqladı

*Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev minalarla mübarizə üzrə beynəlxalq konfransdan öncə mina qurbanlarının son sayını açıqlayıb. "Unikal" xəbər verir ki, Prezidentin köməkçisi sosial şəbəkədə zərərçəkmişlərin sayını özündə əks etdirən şəkli dərc edərək qeyd edib: "Azərbaycanda mina qurbanları artmaqda davam edir. Əsas qurbanlar günahsız mülki şəxslər və istehkamçılardır. Ermənistan əvvəllər işğal olunmuş Azərbaycan torpaqlarına milyonlarla mina yerləşdirib". Xatırladaq ki, bu gün Zəngilanda minalarla mübarizə üzrə beynəlxalq konfrans keçiriləcək. Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Peter Mixalko təyyarə ilə artıq Zəngilan rayonuna yola düşüb.*

Səh.3

## "Bazarlarda qiymətin artması bizi narahat edir"



*Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, deputat Tahir Rzayev "Unikal"a müsahibə verib. O, ailəli, uşaqlı qadınların işə 1 saat gec gəlib, işdən isə 1 saat tez getməsindən, paytaxtdakı tıxacların artmasından, son günlər ətin qiymətinin bahalaşmasından və çörəyin qiymətinin necə dəyişəcəyindən danışıb.*

Səh.4

## Cavanşir Feyziyevin mandat təlaşı



*Qanunvericiliyə əsasən, bu ilin noyabrında parlament seçkiləri olmalıdır. Bunu mayın əvvəllərində Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov qurumun iclasında demişdi. MSK sədri qeyd eləmişdi ki, ancaq seçkilərin müddəti önə də çəkilə bilər: "Parlament seçkilərini nəzərə alaraq...*

Səh.5

## Anar Bayramovun rəhbəri olduğu qurumun tenderləri tənqid hədəfində



*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi ("VTEK"-red.) "Şəbəkə təhlükəsizliyi avadanlıqlarının satınalınması" tenderinin nəticələrini elan edib. Tenderin qalibi "B2B Group" MMC olub. Qalib şirkətlə 1 253 807 manat məbləğində...*

Səh.6

17_27 IYUI-QARA.qxd 5/30/2024 9:46 PM Page 2



# "Sənin üçün ölürəm deyir, sabah isə başqasının..." - Xumar Qədimova



***Əməkdar artist Xumar Qədimova etirafı ilə diqqət çəkib.***

Sənətçi qonaq olduğu "Lamiyyə ilə səhər görüşləri" verilişində arxasınca danışanlara səslənib.

Onlara pis olub, kövrəldiyini deyən Qədimova ikiüzlü insanları qınayıb: "Bu gün əsl sevgi azalıb. Çoxları sənin üçün öldüyünü deyir, sənətinə sevgisini bildirir. Ancaq sabah bir başqasının yanında eyni sözləri deyir. Elə adamlara ürəyim ağrayır. Mənə pis şərh yazan insanlar olduqda əsəbiləşmirəm, əksinə onlar üçün pis oluram. Deməli, xoşbəxt deyil. Ona dəstək olmaq istəmişəm".

# "Azərbaycan incəsənətinə qadın ruhu, Şərq gözəlliyi gətirib" - Aygün Kazımova



***Mədəniyyət Nazirliyinin "Bir muzeyin sirri": tarixi-mədəni yaddaşa düşən işıq layihəsinin növbəti qonağı Xalq artisti Aygün Kazımova olub.***

"Rəssam Vəcihə Səmədovanın portreti" bu il 100 illik yubileyi qeyd olunan Azərbaycanın ilk peşəkar qadın rəngkarı Vəcihə Səmədovanın parlaq obrazını əks etdirir. Layihə üçün əsər Aygün Kazımova tərəfindən təqdim olunub. Sujet xəttinə əsasən, videoçarxın qəhrəmanı tamaşaçıları intizarda saxlayaraq əvvəlcə portret haqqında məlumat verir və sonda barəsində danışdığı əsəri tamaşaçıya göstərir.

Pop kraliça rəsmi təqdim edərkən V.Səmədova ilə bağlı "Muzeyə hər gələn onu axtarır: Dünyanın ən sirli qadınını. Mən isə Azərbaycan qadınını axtarırdım. Mühafizəkar cəmiyyətdə doğulsa da, dövrünün qabaqcıl qadınlarından olan birini. Fədakarlığın və sədaqətin zərif təcəssümünü, sevginin rəmzini, gözəlləyin rəsmini. O, Azərbaycan qadınının daxili səsi, qəlbi, rəngidir. O, rənglərin hakimidir. Tanrının barmaqlarından güc alan yaradıcılığı Azərbaycan incəsənətinə qadın ruhu, ana instinkti, Şərq gözəlliyi gətirib. Azərbaycanın ilk qadın rəssamı Vəcihə Səmədovadır. Tabloları onu 100-cü ilində də yaşadır. Yeri və ünvanı bəlli: Azərbaycan Milli İncəsənət Muzeyi" sözlərini söyləyib.

Qeyd edək ki, əsər 1968-ci ildə Vəcihə Səmədovanın həyat yoldaşı, görkəmli rəssam Lətif Feyzullayev tərəfindən fırçaya alınıb. O, bu əsərdə çox sevdiyi ömür-gün yoldaşını, "Azərbaycan rəngkarlığının kraliçası" kimi tanınan Vəcihə Səmədovanı füsunkar bir qadın, böyük istedada malik rəssam kimi təsvir edib. Kətana vurduğu hər bir yaxmada sevimli xanımına olan məhəbbətini izhar edib. Parlaq koloritli təbiət fonunda əks olunan Vəcihə xanım dərin düşüncələrə dalıb. Vəcihə Səmədovanın vəfatından sonra ərsəyə gələn bu əsərdə Lətif Feyzullayevin həm ürək ağrısı, həm də dərin məhəbbət hissinin təcəssümü əbədiləşib.

# "Elə darıxıram sənsiz, hər baxanda..." - Xatun

***Müğənni Xatun Əliyeva mərhum qardaşı, stilist Balaşla bağlı paylaşım edib.***



"Unikal" axşam.az-a istinadən xəbər verir ki, ifaçı qardaşının ad günü olduğunu bildirib.

"Kaş sənin üçün hər darıxdığımda qucaqlamaq kimi bir şansım olsaydı. Elə darıxıram sənsiz... Bir şəklin var, onu telefonum ekranına qoymuşam. Elə bil dünyanın bütün yükü çiynindədir, nakam baxışın var, qardaşım. Hər baxanda andığım, ağladığım Balaşım, mövludun mübarək. Yaşasaydın 41 yaşını qeyd edəcəkdik" deyə, Xatun paylaşımında yazıb.

Qeyd edək ki, Balaş beyin xərçəngindən dünyasını dəyişib. Onun iki övladı var.

# "Ananın sözünə qulaq asan var?" - Mənzurə Musayeva



***"Yazıq mama nə etsin? Onun sözünə baxan var?".***

Bakıvaxtı.az xəbər verir ki, bu sözləri müğənni Mənzurə Musayeva "Evdəkilərə salam" verilişində deyib.

İfaçı etdirdiyi estetik əməliyyatlara görə anasının ona əsəbləşdiyini, lakin anasını dinləmədiyini bildirib: "Anamdan olsa deyər ki, "necə doğulmusansa, eləcə də qal". Onu oturub başa salıram ki, belə-belə işlər var. İndi başa düşsə də, düşməsə də danışıram. Nə etsin, yola verməlidir. Mən zamanında anamın sözünə baxmışam. Ona görə də indi Mənzurəyəm. İndi o, mənim evimdə şah kimi oturmalıdır. Mən onun başqa işi lazım deyil. Nə istiyirsə var".

# "Oskar" arzum "öldü" - Elməddin Cəfərov

***"Mənim "Oskar" mükafatı almaq arzum vardı, öldü".***



Bu sözləri aktyor Elməddin Cəfərov "Söhbət var" verilişində deyib.

O, film sektorunda ən böyük mükafat olan "Oskar"la bağlı arzularının puç olduğunu bildirib: "Bir az araşdırıb gördüm, hətta bəzi diasporlar var ki, onlar türk filmlərinə belə o imkanı yaratmırlar, onlara belə "Oskar" verilmir. Başa düşdüm ki, sən sənətinlə bir şey edə bilmirsənsə, lazım deyil. Orada başqa güclər var ki, onlar Azərbaycan filminin "Oskar"a namizəd olmasına belə icazə vermirlər. Bu da məni söndürür".

# "Röya xanımı çox sevirəm" - Emin Ağalarov



***Xalq artisti Emin Ağalarov Xalq artisti Röya Ayxanın onunla bağlı səsləndirdiyi fikirlərə münasibət bildirib.***

"Unikal" olay-a istinadən bildirir ki, Emin "Sözbaz" verilişinə müsahibəsi zamanı estrada ulduzunun "Tez-tez görüşməsək də, bəzi məclislərdə rastlaşırıq. Mənim ona qarşı sevgimi, hörmətimi də bilir. Bir də ümumiyyətlə gözəl işlər görür. Mən də o işlərdə arada iştirak edirəm. Bu, bizim aramızda qalsın. Ona görə məni ayrıca çox istəyir" açıqlamasına cavab verib.

"Bəli, görmüşəm. Mən də Röya xanımı çox sevirəm. Yaradıcılığına hörmətlə yanaşıram. Səbirsizliklə onu festivalda gözləyəcəyəm", - deyə, E. Ağalarov bildirib.

17_27 IYUl-QARA.qxd 5/30/2024 9:47 PM Page 3





## Əli Əsədov Ulyanovsk vilayətinin qubernatoru ilə görüşüb

***Baş nazir Əli Əsədov Rusiya Federasiyasının Ulyanovsk vilayətinin qubernatoru Aleksey Russkixlə görüşüb.***

Nazirlər Kabinetindən "Unikal"a verilən xəbərə görə, görüşdə müxtəlif sahələrdə Azərbaycan-Rusiya strateji tərəfdaşlığı müzakirə edilib.

Tərəflər Azərbaycan ilə Ulyanovsk vilayəti arasında səmərəli əməkdaşlıqdan məmnunluq ifadə ediblər. Qarşılıqlı maraq doğuran bütün sahələrdə qarşılıqlı faydalı tərəfdaşlığın daha da inkişaf etdirilməsi perspektivləri də müzakirə edilib.

## Məleykə Abbaszadə: Taksi sürücülərinin hazırlığını DİM qiymətləndirəcək"

***"Qanunvericiliyə edilmiş dəyişikliyə görə ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülər peşə fəaliyyətinə və davranışına, habelə iş və istirahət rejiminin xüsusiyyətlərinə, taksi minik avtomobillərinin sürücüləri isə etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən aktlara dair xüsusi hazırlıq keçməlidir. Xüsusi hazırlığın nəticələrinin qiymətləndirilməsi Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçiriləcək".***

"Unikal" xəbər verir ki, bunu AzərTac-a açıqlamasında Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib. O bildirib ki, bundan başqa, avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaları həyata keçirən operatorun məsul şəxslərinin, habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair təsdiq olunmuş proqram üzrə hazırlıq və yenidən hazırlıq keçməsi nəzərdə tutulur: "Sözügedən hazırlığın və yenidən hazırlığın nəticələrinin qiymətləndirilməsi də Dövlət İmtahan Mərkəzi tərəfindən aparılacaq. Aparılmış qiymətləndirmənin nəticəsinə uyğun olaraq Dövlət İmtahan Mərkəzi tərəfindən 7 il müddətinə qüvvədə olan sənəd təqdim ediləcək. Hazırda qeyd edilən imtahanların keçirilməsi ilə bağlı aidiyyəti dövlət orqanı ilə danışıqlar aparılır və imtahanın yay aylarında keçirilməsi nəzərdə tutulur".

## Ceyhun Bayramov Pakistan Senatının sədri ilə görüşdü

***Azərbaycan xarici işlər naziri Bayramov Ceyhun Pakistana rəsmi səfəri çərçivəsində Pakistan İslam Respublikasının Prezidenti vəzifəsini icra edən və Senat sədri Seyid Yusuf Rza Gilani ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan XİN-in mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, müzakirələr zamanı Pakistan və Azərbaycan arasında strateji tərəfdaşlıq, həmçinin iqtisadi-ticari əlaqələr, investisiyalar, enerji təhlükəsizliyi, kommunikasiyalar kimi potensial əməkdaşlıq sahələri müzakirə olunub.

"İkitərəfli əməkdaşlıqla yanaşı, regional və beynəlxalq formatlar çərçivəsində çoxtərəfli qarşılıqlı fəaliyyət də müzakirələrin gündəmində olub. Tərəflər daha geniş regional vəziyyəti, COP29-a hazırlığı müzakirə ediblər", XİN bildirib.

# Bəzi özəl klinikalara "qara xəbər"

## Yeni yaradılan qurum özbaşınalıqlara son qoya biləcəkmi?

***Bu günlərdə Prezident İlham Əliyev Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında Fərman imzalayıb.***

Publik hüquqi şəxs statusu alacaq Mərkəz tibb müəssisələrinin akkreditasiyası, tibbi xidmətlərin keyfiyyətinin və əlçatanlığının yüksəldilməsi üzrə tədbirlər görülməsi, habelə tibb müəssisələrində daxili keyfiyyət təminatı sistemlərinin qurulması və inkişafı ilə bağlı dəstək xidmətləri göstərəcək.

Məsələ ilə bağlı açıqlama verən tibb üzrə ekspert, professor Adil Qeybulla bildirib ki, ölkədə fəaliyyət göstərən klinikalar müvafiq standartlara uyğun çalışmalıdır (Bakupost). Ancaq bəzi özəl klinikalar bu qaydalara riayət etmirlər. Onlarla bağlı narazılıqlar, çatışmazlıqlarla bağlı şikayətlər çoxdur. Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi də sözügedən məsələləri sahmana salmaq üçün yaradılıb: "Bu qurum xəstəxanaların məsuliyyətini artıracaq. Bu gün ölkədə özəl tibb müəssisələrinin sayı sürətlə artır. Bu xəstəxanaların böyük əksəriyyətində işlər tibbin qaydalarına uyğun getmir. Sözügedən xəstəxanaların bəziləri tibb ixtisası olmayan sahibkarlar tərəfindən idarə edilir. Eyni zamanda bu kimi digər özbaşınalıqlar da var. Özəl xəstəxanalar Azərbaycan təbabətinin qanunları ilə işləməlidir. Mərkəzin fəaliyyəti özəl klinikalardakı özfəaliyyətə, özbaşınalıqlara son qoyacaq. Orada diplomsuz fəaliyyət göstərmələr, müxtəlif qeyri-qanuni fəaliyyətlər aradan qaldırılacaq. Bu akkreditasiya sistemi Qərb təbabəti sistemidir və biz bu sistemə mütləq keçməliyik. Xəstəxanaların da, həkimlərin də ixtisaslaşma dərəcəsi bu akkreditasiya sistemi ilə müəyyən edilməlidir. Dünya bu yolla gedir. Biz də getməliyik".

Rəsmi statistikaya əsasən, ölkədə fəaliyyət göstərən özəl tibb müəssisələrinin sayı 500-dən çoxdur. Bu tibb müəssisələrinin bir çoxu ilə bağlı şikayətlər artıq adi hal alıb. Elə son bir ayda bu mövzuda mətbuatda yayılan xəbərlərin sayı-hesabı yoxdur. Məsələn, ötən ayın sonlarında "Kəpəz" adlı özəl klinikada səhv müalicə olunan uşağın vəfat etdiyi barədə xəbər yayıldı. Məlum oldu ki, Bakı şəhər sakini Xalid Səmədov hüquq-mühafizə orqanlarına şikayət edərək, 13 yaşlı oğlu Murad Səmədovun "Kəpəz" hospitalında müalicə olunduğunu və səhv müalicədən sonra uşağın vəfat etdiyini bildirib. Ata uşağın müalicəsini Könül adlı həkimin apardığını deyib. Bundan sonra daxil olan şikayət əsasında araşdırmalara başlanıb.



Və ya: təxminən iki həftə öncə estetik cərrahiyyə və kosmetoloji fəaliyyət sahəsində qanun pozuntularına yol verən şəxslər məsuliyyətə cəlb olunduğu açıqlandı. Bu barədə Baş Prokurorluq və Səhiyyə Nazirliyinin birgə məlumatında qeyd olunub ki, hər iki qurum estetik cərrahiyyə və kosmetoloji fəaliyyətlə bağlı daxil olmuş çoxsaylı müraciətlər əsasında tibb müəssisələrinin fəaliyyəti monitorinq edilib, qeyd olunan sahədə qanunvericiliyin tələblərinə riayət olunması istiqamətində birgə araşdırmalar aparılıb. Araşdırmalar zamanı estetik cərrahiyyələri icra edən, kosmetoloji xidmətlər göstərən ümumilikdə 9 klinika və kosmetoloji mərkəz tərəfindən sağlamlığın qorunması sahəsində vətəndaşların hüquqlarının pozulması, yəni əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən fiziki şəxslərin işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi, lisenziya olmadan özəl tibbi fəaliyyətlə və ya əczaçılıqla məşğul olma, qanunvericiliyə uyğun olaraq sertifikasiyadan keçməyən şəxslərin (işçilərin) praktik tibb və əczaçılıq fəaliyyətinə buraxılması hallarının müəyyən edildiyindən İnzibati Xətalar Məcəlləsinin 192.1, 210.1 və 215.4-cü maddələri ilə tibb müəssisələrinin vəzifəli şəxsləri barəsində inzibati xəta haqqında 14 icraat başlanıb.

Bundan başqa, "Prokurorluq haqqında" qanunun 22-ci maddəsinə uyğun olaraq qanun pozuntularından çəkindirmək məqsədi ilə 8 halda vətəndaşlar və vəzifəli şəxslərə xəbərdarlıq edilib, habelə, həmin Qanunun 23-cü maddəsinə əsasən qanun pozuntularının, onları doğuran səbəb və şəraitin aradan qaldırılması üçün dövlət qurumlarına 7 təqdimat verilib.

İki gün öncə isə Bakı şəhəri, Xətai rayonu, Əhmədli qəsəbəsi, Gəncə prospekti 34 ünvanında yerləşən "Artromed" klinikasından şikayət yayılıb. Şikayət müəllifi Nəsirova Almaz qeyd edib ki, 7 yaşlı oğlu Nəsirzadə Hüseyni "Artromed" klinikasına aparıb. Orada Kamal doktorun müayinəsindən keçən uşağı parazitoloq Alla Rüstəmovaya yönləndiriblər.

Şikayətçinin sözlərinə görə, həkim A.Rüstəmova müştərinin üstünə qışqıraraq onlardan rus dilində danışmasını tələb edib. Daha sonra həkim Alla Rüstəmova xəstəxananın kolidorunda rus dilində söyüşlər söyərək təhqiramiz ifadələr işlədib. Bu azmış kimi həkim Alla Rüstəmova stolu şikayətçinin uşağı Nəsirzadə Hüseyn Ruslan oğlu və validеyni Nəsirova Almazın üzərinə itələyib. Stol xəstəxanaya gələn digər müştəri Sona xanımın ayağına, Nəsirova Almazın isə qarnına dəyib.

Şikayətçinin iddiasına görə, hadisənin baş həkimin otağında baş verməsinə baxmayaraq həkim Alla Rüstəmovaya qarşı heç bir tədbir görülməyib.

Bu xəbərə qarşı tərəf hələ ki, heç bir reaksiya verməyib...

Ümumiyyətlə isə özəl klinikalarda müayinə və müalicə qiymətlərinin həddən artıq baha olmasından tutmuş tibbi xidmətin bu bahalıqla tərs mütənasib olmasına, yanlış diaqnoz qoyulmasından tutmuş səhv müalicə aparılmasınadək saysız-hesabsız şikayətlər mövcuddur. Üstəlik, belə şikayətlər azalmaq əvəzinə getdikcə artır.

Ümid edək ki, yeni yaradılan Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi özəl klinikalarla bağlı bu acınacaqlı mənzərənin aradan qaldırılmasına nail ola biləcək...

***Toğrul Əliyev***

17_27 IYUl-QARA.qxd 5/30/2024 9:47 PM Page 4



# YAP nümayəndə heyəti ICAPP Biznes Şurası və Daimi Komitəsinin iclaslarında iştirak etdi

***Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti 27-30 may tarixlərində Tailand Krallığı Milli Assambleyasının ev sahibliyi ilə bu ölkənin Banqkok şəhərində keçirilən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) Biznes Şurasının 2-ci və Daimi Komitəsinin (DK) 41-ci iclaslarında iştirak edib.***

”Unikal” xəbər verir ki, mayın 27-də YAP nümayəndə heyəti Tailandın Toplantı və Sərgi Bürosunun və Fəxri Konsullar Assosiasiyasının adından verilən şam yeməyinə qatılıb.



Mayın 28-də 19 ölkədən 22 siyasi partiya və 38 biznes qurumunun iştirakı ilə “Ərzaq təhlükəsizliyi və turizmin təşviqi” mövzusunda keçirilən Biznes Şurası iclasının açılış mərasimində qurumun Bürosunun yeni tərkibi müəyyənləşib. ICAPP DK-nın üzvü Tahir Budaqov siyasi partiyaların və biznes mühitinin nümayəndələrindən təşkil olunan 8 nəfərdən ibarət Büroya yekdilliklə sədr müavini qismində üzv seçilib.

Daha sonra “Ərzaq təhlükəsizliyi”nə həsr olunmuş birinci plenar sessiyada çıxış edən YAP Gənclər Birliyinin və Milli Məclisin Azərbaycan-Tailand parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Səbinə Xasayeva dünyada artan silahlı münaqişələrin və getdikcə özünü daha qabarıq göstərən iqlim dəyişikliyinin qlobal miqyasda ərzaq və qida təhlükəsizliyinə ciddi təhdidlər yaratdığını qeyd edib. O vurğulayıb ki, Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə birgə səylərin əhəmiyyətini birmənalı olaraq qəbul edir və ölkəmizin bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına, yeni COP 29-a ev sahibliyi etməsi bunun təsdiqidir.

“Qlobal emissiyalardakı payının çox cüzi olmasına baxmayaraq, Azərbaycan qlobal iqlim dəyişmələrinə qarşı mübarizədə çox aktiv fəaliyyət göstərir. Eyni zamanda qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti ölkənin 2020-ci ildə işğaldan azad edilmiş ərazilərini - Qarabağ və Şərqi Zəngəzuru “Yaşıl enerji” zonası elan edib”,- deyən S.Xasayeva iqlim dəyişikliyinə qarşı mübarizə səylərinin sadəcə istixana qazı emissiyalarını azaltmaq və qlobal istiləşməni məhdudlaşdırmaq niyyətini güdmədiyini, həm də ərzaq təhlükəsizliyinə müsbət təsir etmək məqsədi daşıdığını vurğulayıb.

İclasın “Turizmin təşviqi” adlı ikinci plenar sessiyasında çıxış edən ICAPP Biznes Şurasının üzvü, “Millennium Turizm & Congress DMC”nin həmtəsisçisi və baş icraçı direktoru Ruslan Quliyev turizmin təhlükəsizlik və qonaqpərvərliklə sıx bağlı olduğunu, dünyada geosiyasi mübarizənin və hərbi münaqişələrin kəskinləşməsi fonunda təhlükəsiz turizm mühiti təqdim edən Azərbaycanın 2020-ci ildə özünün ərazi bütövlüyünü təmin etməklə bütövlükdə Cənubi Qafqaz regionunda davamlı sülh və təhlükəsizlik üçün əlverişli zəmin yaratdığını bildirib. Onun sözlərinə görə, təhlükəsizliklə yanaşı, Azərbaycan turistlərə xalqımızın çoxəsrlik tolerantlıq, multikulturalizm ənənələrinə söykənən qonaqpərvərlik mədəniyyəti və sürətlə inkişaf edən turizm infrastrukturu təqdim edir.

“Şərq ilə Qərb, Avropa ilə Asiya arasında körpü rolunu oynayan Azərbaycan uzun illər ərzində müxtəlif beynəlxalq siyasi, iqtisadi və humanitar tədbirlərə uğurla ev sahibliyi edir”,- deyən R.Quliyev bu baxımdan MDB ölkələri arasında ilk olaraq Azərbaycanda keçiriləcək və dünyanın hər yerindən on minlərlə iştirakçını bir araya gətirəcək COP-a ev sahibliyinin ölkəmizin turizm imkanlarını reallaşdırmaq və genişləndirmək üçün hökumətə və iş adamlarına yeni fürsətlər təqdim edəcəyini, tədbirin keçirilməsindən əldə ediləcək zəngin təcrübənin isə Azərbaycanın turizm sənayesinin inkişafına növbəti illərdə də öz təsirini göstərəcəyini bildirib. Azərbaycanın geniş turizm imkanlarından da bəhs edən R.Quliyev ölkəmizin artıq dünyada yeni turizm istiqaməti kimi tanındığını xüsusi qeyd edib.

İclasın sonunda aparılmış müzakirələrin əsas məzmununu özündə əks etdirən Banqkok bəyanatı qəbul edilib.

Həmin gün YAP Sədrinin müavini Tahir Budaqov ICAPP DK-nın 41-ci iclasında da iştirak edib. İclasda ICAPP-ın son 6 ayda gördüyü işlərə nəzər salınıb, qurumun cari və gələcək fəaliyyətinə dair ətraflı fikir mübadiləsi aparılıb.

DK iclası çərçivəsində ICAPP-ın baş katibi Kvon He-seoq ilə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının baş katibi Asəf Hacıyev tərəfindən iki qurum arasında müşahidəçilərin mübadiləsinə dair anlaşma memorandumu imzalanıb.

Mayın 29-da iştirakçılar 28 may - 1 iyun tarixlərində paytaxt Banqkokda keçirilən “THAIFEX - Anuga Asia 2024” beynəlxalq qida və içki sərgisinə ziyarət təşkil olunub, stendlərə baxış keçirilib.

Daha sonra iştirakçıların Tailand parlamentinin binasına ekskursiyası təşkil olunub, qonaqlara ölkənin ali qanunvericilik orqanı haqqında ətraflı məlumat verilib.

Nümayəndə heyətinin səfəri mayın 30-da başa çatıb.

# Palata Naxçıvanda iki nazirlikdə nöqsanlar aşkarladı

***Azərbaycan Respublikası Hesablama Palatası tərəfindən Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi və tabeliyində olan büdcədən maliyyələşən qurumlar (seçmə qaydada) tərəfindən dövlət vəsaitinin və dövlət əmlakının istifadə olunmasının hüquqi aktlara uyğunluğunun müəyyən edilməsi məqsədi ilə uyğunluq auditi aparılıb.***



”Unikal” Hesablama Palatasına istinadən xəbər verir ki, audit 2023-cü ili əhatə edib və bu dövrdə 24 303 436,26 manat xərc icra edilib.

Auditlə əhatə olunan təhsil müəssisələrində normativlərin tələblərinin gözlənilməməsi, dərs saatlarının artırılması, bir şagirdin bir neçə qrupda göstərilməklə və əvvəlki tədris ilində olmayan şagirdlər hesabına qrupların təşkil edilməsi nəticəsində artıq vəsaitlərin ödənilməsi, dövlət satınalmalarının keçirilməməsi, müqayisəli vəsaitlər üzrə qiymətlərin artırılması və nəzarət ölçü qaydasında baxış zamanı avadanlıqlarda çatışmazlıqlar aşkar edilmişdir. Qeyd olunan hüquqpozmalarda cinayət tərkibinin əlamətləri olduğu ehtimal edildiyindən, həmçinin əvvəlki illərdə olan nöqsan və çatışmazlıqların cari ildə də davam etməsi nəzərə alınmaqla “Hesablama Palatası haqqında” Azərbaycan Respublikası Qanununun 26.2-ci maddəsinə uyğun olaraq kənar dövlət maliyyə nəzarətinin nəticələri barədə müvafiq materiallar Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilib.

Eyni zamanda, Azərbaycan Respublikası Hesablama Palatası tərəfindən Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi və tabeli qurumlarına Naxçıvan Muxtar Respublikası büdcəsindən ayrılan vəsaitlərin və digər dövlət əmlakının istifadəsi və idarə olunmasının uyğunluq auditi aparılıb. Audit 2023-cü ili əhatə edib.

Məlumata görə, əvvəlki illərdə yol verilmiş artıq və qanunsuz xərclərin aradan qaldırılması ilə əlaqədar Nazirlik və tabeli qurumlarda struktur və kadr dəyişikliyi aparılmış, kənd təsərrüfatı sahəsində hüquqi aktların tələblərinə uyğun fəaliyyətin qurulması və Muxtar Respublikada bitkiçilik və heyvandarlıq sahəsində təsərrüfatların qeydiyyatının dürüstləşməsi işlərinə başlanılmış, baramaçılığın bərpası istiqamətində yeni bağlar salınıb.

2023-cü ildə Nazirliyin və tabeli qurumlarının illik smetası 33 395,9 min manat proqnozlaşdırılmış və il ərzində cəmi 35,3%-i yəni 11 788,9 min manat xərc icra edilmişdir. “Qeyri-dövlət müəssisələrinə subsidiyalar” xərc istiqaməti üzrə 20 500,0 min manat smeta təsdiq edilmiş və 6 005,6 min manat, yəni 29,3% həcmində xərc icra edilmiş, “Dövlət müəssisələrinə subsidiyalar” xərc istiqaməti üzrə isə 250,0 min manat vəsait ümumiyyətlə icra edilməmişdir. Proqnozlaşdırmanın və aqrar sahənin uçot-statistik hesabatlığının qənaətbəxş olmaması icranın aşağı faizini şərtləndirib.

Nəzərdə tutulmadığı halda, 2023-cü il üzrə subsidiya üçün ayrılmış vəsaitlərdən 2019-cu ilin sənədlərinə əsasən 637,83 min manat məbləğində arı subsidiyasının və 2022-ci ilə görə isə 14,9 min manat məbləğində tütünçülük üçün məhsul subsidiyasının ödənişi Nazirlik tərəfindən həyata keçirilib.

Sığortalanmalı olan bitkilərin becərilməsinə görə qanunvericiliyin tələblərinə uyğun olaraq sığorta müqaviləsi bağlanılmadan, 321 şəxsə ümumilikdə 6353.18 ha sahə üçün 1397,7 min manat həcmində əkin subsidiyası ödənilib.

2023-cü ildə müvafiq səlahiyyətlər müəyyən edilmədiyi halda Nazirliyin müvafiq əmrləri ilə tabeli qurumları arasında maliyyə vəsaitlərinin ötürülməsi həyata keçirilməklə tabeli qurumların ehtiyaclarını və kreditor borclarını bağlamaq üçün ayrı-ayrı vaxtlarda ümumilikdə 658,7 min manat vəsait ödənilib (bu vəsaitin 470,0 min manatı audit dövründə bərpa edilib).

Nazirliyin tabeli qurumunun anbarına baxış keçirilərkən 35,8 ton mineral gübrənin faktiki anbar qalığından artıq olduğu və inventarizasiya zamanı mühasibatlıq sənədlərində bu barədə qeydiyyatın aparılmadığı müəyyən edilib.

Nazirliyin tabeli qurumunun bazasında sərgilənən 11 adda, ümumi dəyəri 266,9 min manat olan kənd təsərrüfatı təyinatlı texnika və avadanlıqların təhvil-təslim aktı tərtib edilməsinə və satış məqsədi ilə təhvil verilməsinə baxmayaraq, satışın qanunvericiliyə uyğun rəsmiləşdirilməsi və texnikaların dəyərinin mühasibat sənədlərində debitor borc kimi qeydiyyata alınması təmin edilməyib.

Nazirliyin əsasən təsərrüfathesablı tabeli qurumları üzrə “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun və bəzi hallar üzrə (9580,0 manat) elektron qaimə-fakturaların təqdim edilməsi ilə bağlı qanunvericiliyin tələblərinə əməl edilməsi vəziyyəti qənaətbəxş olmamış, həmçinin bu qurumlar üzrə büdcədənkənar vəsaitlər üçün xəzinədarlıq orqanında müvafiq hesabın açılması ilə bağlı müraciətin olmadığı, gəlir və xərc smetaları təsdiq edilmədən vəsaitlərin müstəqil bank hesabından xərclənməsinə yol verildiyi aşkar edilib.

Auditin nəticələrinə əsaslanmaqla, Hesablama Palatası audit dövründə büdcəyə bərpaları, görülmüş işləri nəzərə alaraq, audit zamanı aşkar edilmiş nöqsanların aradan qaldırılması, maliyyə hesabatlarında və ilkin təsdiqedici sənədlərdə müvafiq düzəlişlərin edilməsi, qalıq vəsaitlərin bərpası, xərclərin təyinatı üzrə istifadəsinə nəzarətin gücləndirilməsi və digər tədbirlərlə bağlı qərarını kənar dövlət maliyyə nəzarəti obyektinə, həmçinin auditlə bağlı müvafiq məlumatları Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə, Naxçıvan MR Nazirlər Kabinetinə və Naxçıvan MR İqtisadiyyat Nazirliyinə təqdim edib.

# İlham Əliyevə təbriklər gəlməkdə davam edir

***Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.***

"Unikal" xəbər verir ki, məktubda deyilir: "Zati-aliləri. Azərbaycan Respublikasının Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, ölkənizə və xalqınıza firavanlıq, tərəqqi arzulayıram. Bu xoş fürsətdən istifadə edərək, 2024-cü il noyabrın 12-13-də Bakıda keçiriləcək İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammitinə dəvətinizə görə Sizə minnətdarlığımı bildirirəm. Mən Sizin dəvətinizi məmnunluqla qəbul etmişəm və COP29-da iştirak etməyi səbirsizliklə gözləyirəm. Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm".

Moldova Respublikasının Prezidenti Maya Sandu da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

Məktubda deyilir: "Zati-aliləri. Ölkənizin Müstəqillik Günü münasibətilə Sizi və Azərbaycan vətəndaşlarını təbrik edirəm. Respublikanıza davamlı tərəqqi, firavanlıq və əmin-amanlıq arzulayıram. Mən Moldova Respublikası ilə Azərbaycan Respublikası arasında möhkəm əlaqələri yüksək qiymətləndirirəm. Ölkəmizin ikitərəfli dialoqun daha da dərinləşdirilməsinə sadiq olduğunu bir daha təsdiq edirəm. Ehtiyac duyduğumuz anlarda yanımızda olduğunuzu həmişə xatırlayacağıq. Əminəm



ki, birgə səylərimiz nəticəsində Moldova və Azərbaycan enerji, nəqliyyat, kənd təsərrüfatı, ticarət və investisiya kimi mühüm sahələrdə əməkdaşlığımızı genişləndirmək imkanlarından tam istifadə edəcək və nəticədə hər iki ölkə vətəndaşlarına fayda verəcəkdir. Fürsətdən istifadə edərək, Birləşmiş Millətlər Təşkilatının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməyinizi yüksək qiymətləndirirəm. Əminəm ki, bu tədbir Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq və daha yaşıl gələcəyə kömək etmək istiqamətində birgə səylərimizi inkişaf etdirəcək. Cənab Prezident, ən xoş arzularımı və yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm".

Peru Respublikasının Prezidenti Dina Ersilia Boluarte Zeqarra Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

Təbrik məktubunda deyilir: "Zati-aliləri, cənab Prezident. Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə Peru hökuməti və xalqı adından ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. Bu əlamətdar gündə Azərbaycan xalqının rifahı və firavanlığı ilə bağlı ən xoş arzularımı yetirirəm. Peru dövlətinin ölkələrimizi birləşdirən dostluq və əməkdaşlıq əlaqələrini möhkəmləndirməkdə maraqlı olduğunu vurğulayıram. Mən, həmçinin xalqlarımızı yaxınlaşdıracaq yeni qarşılıqlı maraq sahələrini müəyyənləşdirmək istəyimi ifadə edirəm. Fürsətdən istifadə edərək Zati-alinizə ən yüksək hörmət və ehtiramımı bildirərəm".

Qazaxıstan Respublikasının birinci Prezidenti Nursultan Nazarbayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib. Məktubda deyilir: "Hörmətli İlham Heydər oğlu. Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin. Sizin dövlətiniz sosial-iqtisadi inkişaf üzrə böyük uğurlar qazanıb və beynəlxalq arenada nüfuzunu ardıcıl şəkildə möhkəmləndirir. Arzu edirəm ki, ölkəniz gələcəkdə də inkişaf etməkdə davam etsin və yüksək məqsədlərə nail olsun. Ümidvaram ki, Qazaxıstanla Azərbaycan arasında qarşılıqlı anlaşmaya əsaslanan strateji tərəfdaşlıq xalqlarımızın maraqları naminə davam edəcəkdir. Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və xoşbəxtlik arzulayıram".

# Ceyhun Bayramov Seyid Yusif Rza Gilani ilə görüşüb

***Mayın 30-da xarici işlər naziri Ceyhun Bayramov Pakistan İslam Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidentinin vəzifələrini icra edən, Senatın sədri Sayed Yusuf Raza Gilani ilə görüşüb.***



XİN-dən verilən xəbərə görə, görüş zamanı, Azərbaycan və Pakistan strateji tərəfdaşlığından irəli gələn məsələlər ilə yanaşı, regional və beynəlxalq vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov dost və qardaş Pakistana rəsmi səfəri zamanı göstərilən qonaqpərvərliyə görə təşəkkür edərək, ölkələrimiz arasında bu kimi səfər və təmasların mövcud strateji tərəfdaşlıq münasibətlərinin inkişafına töhfə verdiyini diqqətə çatdırıb.

Postmünaqişə dövründə mövcud regional vəziyyət barədə qarşı tərəfi ətraflı məlumatlandıran nazir Ceyhun Bayramov, keçmiş münaqişə zamanı, habelə hazırkı şəraitdə göstərilən siyasi və mənəvi dəstəyə görə Pakistana təşəkkür edib.

Hazırda işğaldan azad olunmuş ərazilərdə görülən genişmiqyaslı bərpa işləri, habelə Azərbaycan və Ermənistan arasında aparılan normallaşma və sülh danışıqlarından bəhs edən nazir Ceyhun Bayramov, ölkəmizin hər iki istiqamət üzrə fəaliyyətinin regional sülh və sabitliyə hesablandığını diqqətə çatdırıb.

Nazir Ceyhun Bayramov, eyni zamanda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq və danışıqlar prosesi barədə qarşı tərəfi məlumatlandıraraq, iqlim dəyişikliyi ilə mübarizə sahəsində əməkdaşlıq imkanlarını yüksək qiymətləndirdiyimizi bildirib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# 14 ölkədən QHT-lər Azərbaycanın COP29 fəaliyyətini alqışladı




***ABŞ, Böyük Britaniya, Almaniya, Belçika, Niderland, İtaliya, Macarıstan, Avstraliya, Pakistan, Nigeriya, Əlcəzair, Kamerun, Meksika, Hindistandan olan QHT-lər və ictimai fəallar Azərbaycan Milli QHT Forumuna məktub ünvanlayaraq, COP29-a evsahibliyi edən Azərbaycana güclü dəstək ifadə ediblər.***

Bəyanatda imzası olan vətəndaş cəmiyyəti təşkilatları və ictimai fəallar 2024-cü ilin noyabrında Azərbaycanın paytaxtı Bakıda keçiriləcək COP29-un vacibliyini vurğulayırlar.

"Bu tədbir böyük gözləntilər daşıyır. COP29-a ev sahibliyi edən Azərbaycanın bütün səslərin eşidildiyi, perspektivlərin nəzərdən keçirildiyi və inklüziv nəticələrin təmin edilməsi üçün birgə səylərin səfərbər olunduğu inklüziv mühitin yaradılmasına sadiqlik nümayiş etdirir. İnklüziv və birgə iqlim fəaliyyətinin tərəfdarları kimi biz QHT-lərin COP29-da iştirakının vacib əhəmiyyətinə qəti şəkildə inanırıq.QHT-lər öz icmaları ilə dərin əlaqələri olan maraqlı tərəflər kimi çıxış edərək COP29-da müzakirə və qərar qəbuletmə proseslərini zənginləşdirən özünəməxsus fikir, təcrübə və perspektivlər təklif edir. Onların iştirakı iqlim böhranını həll etmək üçün kollektiv öhdəliyi gücləndirərək sahiblənmə, məsuliyyət və həmrəylik hissini gücləndirir. Azərbaycan Milli QHT Forumu ilə, COP29-un sədrliyi və Azərbaycanla planetimiz üçün ümidli gələcəyə dəstək səylərində həmrəy olduğumuzu bəyan edirik", - bəyanatda qeyd edilib.

# I siniflərə qəbul üçün müsahibələr yekunlaşdı

***Tədris digər dillərdə aparılan I siniflərə qəbul üçün müsahibələr yekunlaşıb.***

Bu barədə "Unikal"a Elm və Təhsil Nazirliyindən bildirilib.

Qeyd olunub ki, müsahibənin nəticəsindən narazı qalan valideynlər 3 iyun 2024-cü il ta-



rixinədək mektebeqebul.edu.az saytının "Əlaqə" bölməsindən "Apellyasiya Komissiyasına müraciət" hissəsini seçməklə müraciətlərini edə bilərlər.

Tədris digər dillərdə aparılan bölmələr üzrə məktəbəhazırlıq qruplarında təhsil alan və müsahibədə uğur qazanan uşaqlar sistem tərəfindən avtomatik olaraq 1-ci sinfə yerləşdiriləcəklər. Məktəbəhazırlıq qruplarında təhsil almayan və müsahibədə uğur qazanan uşaqlar üçün həmin bölmə üzrə məktəb və müəllim seçimi isə 12 iyun 2024-cü il tarixində saat 11:00-dan etibarən başlayacaq.

Qeyd edək ki, 12 iyun tarixindən 12 iyul tarixinə qədər Abşeron rayonu, Bakı, Gəncə və Sumqayıt şəhərlərində yerləşən bir sıra ümumi təhsil müəssisələrinin tədris digər dillərdə aparılan bölmələri üzrə yalnız üstünlük hüququ əsasında qəbul aparılacaq. 12 iyul 2024-cü il tarixindən 13 sentyabr tarixinə qədər isə sərbəst (prioritetsiz) seçim mümkün olacaq. Valideynlər üstünlük hüququ tətbiq edilən müəssisələrin siyahısı ilə mektebeqebul.edu.az saytında tanış ola bilərlər.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcivani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Hakan Fidan Blinkenlə danışıqlar apardı

***Türkiyə xarici işlər naziri Hakan Fidan ABŞ Dövlət Katibi Entoni Blinkenlə görüşüb.***



"Unikal" xəbər verir ki, bu barədə Türkiyə XİN məlumat yayıb.

Görüş Praqada NATO Xarici İşlər Nazirlərinin Qeyri-rəsmi Toplantısı çərçivəsində baş tutub

17_27 IYUI-QARA.qxd 5/30/2024 9:48 PM Page 6



# İlham Əliyev konfrans iştirakçılarına müraciət ünvanladı

***Azərbaycan Prezidenti İlham Əliyev Zəngilanda "Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər edilməsi" mövzusunda keçirilən III Beynəlxalq Minatəmizləmə Konfransının iştirakçılarına müraciət ünvanlayıb.***

"Unikal" müraciəti təqdim edir: "Sizi "Minaların ətraf mühitə təsirinin azaldılması - Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda keçirilən beynəlxalq konfransın açılışı münasibətilə salamlayıram.

Bu gün mina və partlamamış hərbi sursatlar hələ də dünyanın bir çox ölkəsində insan təhlükəsizliyini təhdid edən kəskin problemlərdən biridir. Müharibə bitdikdən on illər sonra belə insanların həyatını təhlükəyə atmaqla yanaşı, minalar sosial-iqtisadi inkişafa, ətraf mühitə, mədəni irsə, münaqişədən sonrakı bərpa və inkişaf təşəbbüslərinə və nəticə etibarilə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq səylərinə ciddi şəkildə mane olur.



Mina partlayışları insanların həyatına təhlükə yaratmaqla və ümumiyyətlə yaşamaq hüququnu sual altına qoymaqla bərabər ətraf mühitə də böyük ziyan vurur. Belə ki, partlayışlar zamanı yaranan plastik tullantılar ekoloji fəsadlara səbəb olaraq torpaqların strukturuna mənfi təsir göstərir. Uzun müddət torpağın içində qalan minalar zərərli kimyəvi reaksiyalara gətirib çıxarır. Minalara görə istifadə olunmayan torpaqlar təbii eroziyaya və aşınmaya məruz qalır. Bu baxımdan, bugünkü konfransın Azərbaycanın ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 öncəsi təşkil edilməsi xüsusi önəm daşıyır.

Azərbaycan 30 ilə yaxın davam edən münaqişə və torpaqlarının Ermənistan tərəfindən işğalı nəticəsində ərazilərinin minalarla çirklənməsi problemindən əziyyət çəkir və dünyada minalarla ən çox çirklənmiş ölkələr sırasındadır. Ölkə ərazisinin təxminən 12 faizi ilkin qiymətləndirmələrə görə 1,5 milyon mina və naməlum sayda partlamamış hərbi sursatlarla çirkləndirilib.

Müharibənin 2020-ci ildə başa çatmasından bu günə qədər əksəriyyəti mülki olan 361 vətəndaşımız mina qurbanı olmuş, onlardan 68-i həlak olmuş, 293-ü isə ağır yaralanmışdır. Ümumilikdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3400-dən çox vətəndaşımız minalardan zərər çəkmişdir, onlardan 358-ni uşaqlar, 38-ni isə qadınlar təşkil edir. Mina qurbanlarının sayının gündən-günə artmasının əsas səbəbləri sırasında Ermənistanın Azərbaycan ərazisində basdırdığı minaların dəqiq xəritələrini təqdim etməkdən imtina etməsi, keçmiş təmas xəttinin arxasında yerləşən yollara, qəbiristanlıqlara, mülki təyinatlı digər obyektlərə tələ xarakterli minalar yerləşdirməsidir. 2020-ci ildən 2023-cü ilə qədər uzunluğu 500 kilometrədək olan yeni minalanmış zonalar yaradılmış, yenidən Azərbaycanın ərazisinə minalar basdırılmışdır. Bunun məsuliyyəti Ermənistanın üzərinə düşür.

Minaların təmizlənməsində üzləşdiyimiz çətinliklər, eyni zamanda, yenidənqurma və bərpa işlərinə əngəl yaradır, 800 min keçmiş məcburi köçkünün öz evlərinə qayıtmasına ciddi maneə törədir.

Humanitar minatəmizləmə Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindən biridir və onun təməli Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə qoyulmuşdur. Hazırda ölkəmizdə humanitar minatəmizləmə fəaliyyətini həyata keçirən əsas qurum Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi - ANAMAdır.

Bu günə qədər aparılan minatəmizləmə prosesi nəticəsində 140 min hektara yaxın sahə 119 min 946 mina və partlamamış hərbi sursatlardan təmizlənib. Lakin minalanmış ərazilər bundan daha genişdir. Minaları yerləşdirmək asan, onları təmizləmək isə qat-qat çətin və mürəkkəb prosesdir. Azərbaycan bu məqsədlə qısa müddət ərzində bütün gücünü səfərbər edərək dünyada tətbiq olunan ən müasir və qabaqcıl texnologiyalardan istifadə edir. Minatəmizləmə sahəsində səmərəliliyin artırılması üçün tərəfimizdən davamlı şəkildə müvafiq işlər görülür və hazırda imkanlarımız əvvəlki illərlə müqayisədə xeyli artmışdır. Azərbaycanda ötən ildən başlayaraq qadın minatəmizləyən qrupları da fəaliyyətə başlamışdır.

Ölkəmiz humanitar minatəmizləmə fəaliyyətini demək olar ki, tam şəkildə öz resursları hesabına həyata keçirir. Minaların humanitar fəsadlarının aradan qaldırılması, torpaqların minalardan təmizlənməsi üçün beynəlxalq ictimaiyyətin adekvat siyasi və praktiki dəstəyi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan öz mina probleminə paralel olaraq, beynəlxalq ictimaiyyətin diqqətini bu məsələyə cəlb etmək üçün çoxsaylı təşəbbüslərlə çıxış edib. Bildiyiniz kimi, keçən il ölkəmiz humanitar minatəmizləməni 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi olaraq rəsmən elan etmişdir və bu məsələnin BMT-nin qlobal 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi qəbul edilməsi istiqamətində tərəfimizdən davamlı iş aparılır. Eyni zamanda, Azərbaycan Qoşulmama Hərəkatı çərçivəsində humanitar minatəmizləmə üzrə xüsusi əlaqə qrupunun yaradılması təşəbbüsü ilə çıxış edib. Qrup ötən ilin sentyabr ayında fəaliyyətə başlayıb.

Azərbaycanın təşəbbüsü ilə "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasına Tərəf Ölkələrin 2013-cü ildə keçirilmiş 15-ci görüşündə "Minaların mədəni irsə təsiri" ilə bağlı qətnamə qəbul edilmişdir. Azərbaycan tərəfi bu mühüm qətnamənin davamı olaraq cari ilin may ayında Ağdamda "Minaların və partlamamış hərbi sursatların mədəni mülkiyyətə təsiri" mövzusunda xüsusi konfrans təşkil etmişdir.

Ölkəmiz son üç ildə BMT ilə birlikdə mina mövzusuna həsr edilmiş bir sıra beynəlxalq konfranslar keçirmişdir. Bu tədbirlər minaya qarşı fəaliyyət məsələlərinə dair əsas müzakirə platformaları olmaqla yanaşı, müasir dövrdə bəşəriyyəti narahat edən bu vacib probleme diqqətin artırılmasına xidmət edir. Hazırda Azərbaycan BMT ilə birlikdə mina fəaliyyətinin tədrisi üçün "Mükəmməllik Mərkəzi"nin yaradılması istiqamətində iş aparır. Konfrans çərçivəsində ANAMA və BMT-nin İnkişaf Proqramı arasında niyyət sənədi imzalanacaqdır. Bu əlamətdar hadisə Azərbaycanın bu sahədə öz təcrübəsini oxşar problemlərlə üzləşən digər ölkələrlə bölüşməyinə də kömək edəcəkdir.

Bugünkü tədbir Azərbaycanın müasir dövrün çağırışlarından olan mina ilə mübarizə əzmini nümayiş etdirir. İnanıram ki, konfrans mina probleminin, onun törətdiyi bütün, o cümlədən ekoloji fəsadların aradan qaldırılması imkanlarının müzakirəsi, habelə mina fəaliyyəti sahəsində qabaqcıl təcrübə mübadiləsinə töhfə verəcəkdir. Sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm".



## Hikmət Hacıyev mina qurbanlarının son sayını açıqladı

***Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev minalarla mübarizə üzrə beynəlxalq konfransdan öncə mina qurbanlarının son sayını açıqlayıb.***

"Unikal" xəbər verir ki, Prezidentin köməkçisi sosial şəbəkədə zərərçəkmişlərin sayını özündə əks etdirən şəkli dərc edərək qeyd edib: "Azərbaycanda mina qurbanları artmaqda davam edir. Əsas qurbanlar günahsız mülki şəxslər və istehkamçılardır. Ermənistan əvvəllər işğal olunmuş Azərbaycan torpaqlarına milyonlarla mina yerləşdirib".

Xatırladaq ki, bu gün Zəngilanda minalarla mübarizə üzrə beynəlxalq konfrans keçiriləcək. Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Peter Mixalko təyyarə ilə artıq Zəngilan rayonuna yola düşüb.

## "Minaların azaldılması təhlükəsiz və "yaşıl gələcək" üçün vacibdir" - Nazir

***Azərbaycanın bir zamanlar işğal altında olan ərazilərinin azad edilməsi təkcə suverenliyin və ədalətin təntənəsi deyil, həm də ciddi ekoloji çağırış və fürsət idi.***



"Unikal" xəbər verir ki, ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev Zəngilanda "Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda keçirilən beynəlxalq konfransda video müraciətlə çıxışı zamanı deyib.

"Təhlükəsiz və "yaşıl gələcək" üçün minaların ətraf mühitə təsirinin azaldılması və resursların səfərbər edilməsi vacibdir. Qlobal ictimaiyyətin iqlim dəyişikliyi ilə mübarizə səylərini artıracağı COP29-a hazırlaşdığımız dövrdə silahlı münaqişə irsinə xüsusi diqqət yetirməklə ekoloji dayanıqlılıq, sülh və təhlükəsizlik arasında dərin əlaqələri qəbul etmək vacibdir. Azərbaycan bu əlaqəni başa düşür", - o bildirib.

Bu ilin noyabrında Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçiriləcək. Bu qərar ötən il dekabrın 11-də Dubayda keçirilən COP28-in plenar iclasında qəbul edilib. Tədbir çərçivəsində Azərbaycanın paytaxtı 70-80 minə yaxın xarici qonaq qəbul edəcək.

17_27 IYUl-QARA.qxd 5/30/2024 9:48 PM Page 7





## Lalə Şövkət siyasətə qayıdır? - Yeni hərəkat yaradıldı

***Mayın 28-də bir qrup siyasətçi və fəal "Qurucular hərəkatı"nın yaradıldığını elan ediblər.***

"Unikal" xəbər verir ki, bu barədə "Turan"a təşkilatın təşəbbüskarı, müxalif siyasətçi Əvəz Temirxan bildirib.

O qeyd edib ki, hərəkat əhalinin demokratik maarifləndirilməsi, vətəndaşların siyasi proseslərdə ictimai iştirakının artırılması, ölkədə azad seçkilər keçirilməsinə şərait yaradılması məqsədilə yaradılıb. Hərəkatın yaradılmasının elan edilməsi Müstəqillik Gününə təsadüf edib, bu da təşkilatın təsisçilərinin Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920-ci illər) qurucularının ideyalarına sadiqliyi təcəssüm etdirir. Temirxanın sözlərinə görə, yaxın günlərdə hərəkat qeydiyyat üçün sənədlərini Ədliyyə Nazirliyinə təqdim edəcək: "Hərəkata rəhbərlik kollektiv olacaq".

Musavat.com isə "Quruculuq hərəkatı"nın Lalə Şövkətlə razılaşdırıldığını və xanım siyasətçinin parlament seçkilərində namizəd ola biləcəyini ehtimal edir: "Əvəz Temirxan Lalə Şövkət Hacıyevanın qurucusu və lideri olduğu, ötən il ləğv edilmiş Azərbaycan Liberal Partiyasının sədri idi. Partiya buraxıldıqdan sonra keçmiş ALP sədri belə bir hərəkat yaratmasını sözsüz ki, Lalə Şövkətlə də razılaşdırıb. Bu həm də belə rəylər yaradır ki, parlament seçkiləri öncəsi Lalə Şövkət "düşərgəsinin" hərəkətlənməsi təsadüfi deyil. Böyük ehtimalla təşəbbüs elə Lalə xanımdan gəlib və o, parlament seçkilərində namizəd olmaq niyyətindədir. Bütün hallarda uzun müddətdir siyasi susqunluq nümayiş etdirən Lalə Şövkətin yaxın ətrafının, keçmiş partiyasının sədrinin hərəkat yaratması bu düşüncəni formalaşdırır".

## Milli Xalça Muzeyinə yeni direktor təyin olundu

***Əməkdar mədəniyyət işçisi, sənətşünas Əminə Məlikova Azərbaycan Milli Xalça Muzeyinin yeni direktoru təyin olunub.***



"Unikal" xəbər verir ki, mədəniyyət naziri Adil Kərimli bununla bağlı müvafiq əmr imzalayıb.

Qeyd edək ki, Əminə Zakir qızı Məlikova 2000-ci ildə Jurnalistika ixtisası üzrə bakalavr, 2007-ci ildə iqtisadiyyat və menecment ixtisası üzrə magistratura pillələrini bitirib. 2016-cı ildən sənətşünaslıq üzrə fəlsəfə doktorudur.

1999-2009-cu illərdə Muzey Mərkəzinin Beynəlxalq əlaqələr və mədəni inkişaf şöbəsinin müdiri, 2009-2018-ci illərdə Azərbaycan Milli İncəsənət Muzeyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, direktor müavini vəzifələrində işləyib. 2018-ci ildə "İçərişəhər" Muzey Mərkəzinin direktoru təyin edilib.

Ə.Məlikova 2023-cü ildən son təyinatadək Heydər Əliyev Mərkəzi Tədbirlərin və sərgilərin təşkili departamentinin direktoru vəzifəsində çalışıb.

# "Bazarlarda qiymətin artması bizi narahat edir"

## Tahir Rzayev: "Müəyyən sahibkarlar bazara vaxtında çıxa bilmədikləri üçün öz məhsullarını aşağı qiymətə işbazlara satırlar"

***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, deputat Tahir Rzayev "Unikal"a müsahibə verib. O, ailəli, uşaqlı qadınların işə 1 saat gec gəlib, işdən isə 1 saat tez getməsindən, paytaxtdakı tıxacların artmasından, son günlər ətin qiymətinin bahalaşmasından və çörəyin qiymətinin necə dəyişəcəyindən danışıb.***

***-Tahir müəllim, siz bu günlərdə parlamentdə çıxışınız zamanı ailəli, uşaqlı qadınların işə 1 saat gec gəlib, işdən isə 1 saat tez getməsini təklif etmişdiniz. Bu təklif müzakirələrə səbəb olub. Sizin təklifinizi dəstəkləyənlərlə yanaşı, düzgün hesab etməyənlər də olub. Belə ki, "qadınlarla kişilərin hüquqları eyni olmalıdır. Eyni vaxtda işə gəlib-getməli, eyni şərtlərlə işləməlidirlər" fikirləri də səsləndirilir. Bu barədə nə deyə bilərsiz?***



-Ailəli, uşaqlı qadınların işə 1 saat gec gəlib, işdən isə 1 saat tez getməsi ilə bağlı təklif mövcud reallıqlara əsaslanır. Ailəli, uşağı olan qadınların bilavasitə normal həyatının təmin olunması üçün vacib olan fikirlərdir. Azərbaycanda qadınlarımıza olan hörmət və qayğı tükənməzdir. Əmək Məcəlləsinin 94-cü maddəsinin 2-ci bəndində göstərilir ki, hamilə və yaşyarımadək uşağı olan qadınlar, 3 yaşınadək uşağını təkbaşına böyüdən valideynlər üçün 36 saatdan artıq iş olmamalıdır. Bu iş vaxtıdır ki, qadınlar 1 saat tez gedə bilərlər. Eləcə də Əmək Məcəlləsinin 243-cü maddəsində göstərilir ki, uşağı olan qadınlar əziyyət çəkirlərsə, onlar mütləq yüngül işlə təmin olunmalıdırlar. Digər tərəfdən azyaşlı uşaqların yedizdirilməsi, onlara qayğı göstərilməsi üçün qadınlara lazımi şərait yaradılmalıdır. Hesab edirəm ki, təklif etdiyim məsələ ilə bağlı maddənin salınması qanunauyğun olardı. Bu heç də qadınlarla kişilərin hüquqlarının pozulması deyil. Bəzi insanlar səhv olaraq bunun beynəlxalq konvensiyalara zidd olduğunu düşünürlər. Ancaq beynəlxalq konvensiyalarda göstərilir ki, qadınlarla kişilərin hüquqları bərabərdir. Biz də bunu dəstəkləyirik. Desək ki, qadınlarla kişilər bir yerdə təhsil almasın, onlar eyni vəzifə daşıya bilməz, eyni tədbirdə iştirak etməsinlər və s. bu zaman konvensiyalara zidd hərəkət etmiş olarıq. Ancaq təklif etdiyim məsələdə söhbət diqqət və qayğıdan gedir. Sözsüz ki, bu araşdırılmalı və müəyyən dinləmələr olmalıdır. Mümkün olarsa, bu təklif Əmək Məcəlləsində öz ifadəsini tapa bilər.

***-Məlum olduğu kimi, Bakıda insanları narahat edən əsas məsələlərdən biri də tıxacların olmasıdır. Bəzən fərqli iş saatlarının olmasının tıxacların azalmasına səbəb ola biləcəyi bildirilir. Siz necə düşünürsüz, iş vaxtı ilə bağlı hansı dəyişikliklər tıxacları azalda bilər?***

-Bakıda tıxacların kütləvi hal alması hər birimizi narahat edir. Belə ki, tıxac səbəbindən iş saatları itirilir. Eyni zamanda adamların narahatlığına səbəb olur. Avtomobillərin sayının çox olmasının atmosferə də təsirləri var. Bu məsələ uzun müddətdir cəmiyyəti ciddi düşündürür. Bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilib və hazırda da davam etdirilir. Təəssüflər olsun ki, torpaqlarımız 30 ilə yaxın işğal altında qaldı. Qarabağ əhalisinin əksəriyyəti Bakıda yaşamağa məcbur oldu. Həmçinin, Qərbi Azərbaycandan qovulan vətəndaşların bir hissəsi də paytaxtda yerləşdi. Bunlarla yanaşı insan artımı da tıxaclara yol açdı. Bu gün dövlətin müəyyən lahiyələri var ki, onlar uğurla həyata keçirilir. Qarabağda və Şərqi Zəngəzurda möhtəşəm bərpa-quruculuq, tikinti və abadlıq işləri görülür. Əhali öz ata-baba yurduna köçürülür. Artıq işğaldan azad olunmuş bir neçə rayonda insanlar yerləşdirilib. Bu köç uğurla davam edir. Hesab edirəm bu, Bakının sıxlığını müəyyən qədər azaldacaq. Həmin yerlərdə həyatın canlanması, yeni iş yerlərinin açılması, aqrar sektorun inkişafı, turizmin yüksəlişi insanları daha çox bu bölgələrə cəlb edəcək. Müəyyən sakinlər Bakıdan regionlara köç edəcəklər. Əhalinin köçməsi gələcəkdə paytaxtda tıxac məsələsini xeyli yüngülləşdirəcək.

***-Son günlər ətin qiymətinin artması ilə bağlı məlumatlar var. Daha çox qoyun ətinin bahalaşdığı deyilir. Ətin qiymətindəki artım nə ilə bağlıdır?***

-Bazarda ətin qiymətinin artması bizi narahat edir. Bu, bəzi işbazların fəaliyyəti ilə əlaqəlidir. Ona görə ki, kəndlərdən əti ucuz qiymətə alıb Bakıda satanların sayı çoxalıb. Müəyyən sahibkarlar bazara vaxtında çıxa bilmədikləri üçün öz məhsullarını aşağı qiymətə işbazlara satırlar. Onlar da bunun üzərinə xeyli miqdarda qiymət qoyaraq bazara satışa çıxarırlar. Digər səbəb yem qiymətlərinin artması və insanların ətə olan tələbatının yüksəlməsi ilə bağlıdır. Bizdə vətəndaşlar ət məhsullarına daha çox üstünlük verirlər. Ən mühüm səbəblərdən biri də insanların zəhmətə qatlaşmamasıdır. Kəndlərimizdə əvvəllər hər bir kəsin həyətində mal-qara, qoyun-quzu, toyuq-cücə saxlanılardı. Amma indi əksər həyətlərdə bu sadaladıqlarım saxlanılmır. İnsanlar nə isə zəhmət çəkmək istəmirlər. Onlar hazır məhsulu bazardan almağa üstünlük verirlər ki, bu da ailə büdcəsinə ziyandır. Hesab edirəm ki, kənd əhalisi özünü ət, süd və digər kənd təsərrüfatı məhsulları ilə təmin etməlidir.

***-Ötən ay unun qiymətində də artım müşahidə olunub. Bu artıma səbəb nədir və qarşıdakı dövrdə çörəyin qiymətində bahalaşma gözlənilirmi?***

-Ölkədə çörəyin qiymətinin artması gözlənilmir. Ola bilsin ki, bu aylarda un məhsullarına olan tələbat yüksəldiyi üçün müəyyən qiymət artımı olsun. Bir neçə gündən sonra buğda və arpa biçininə başlanılacaq. Ona görə də heç bir narahatlığa səbəb yoxdur.

***Anar Kəlbiyev***

# Cavanşir Feyziyevin mandat təlaşı

## Biznesmen-deputatı qarşıdan gələn parlament seçkilərində sürpriz gözləyir?

***Qanunvericiliyə əsasən, bu ilin noyabrında parlament seçkiləri olmalıdır. Bunu mayın əvvəllərində Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov qurumun iclasında demişdi.***

MSK sədri qeyd eləmişdi ki, ancaq seçkilərin müddəti önə də çəkilə bilər: “Parlament seçkilərini nəzərə alaraq, seçki komissiyalarının üzvlərinin maarifləndirilməsi ilə bağlı müəyyən işlərə artıq başlanılmalıdır”.

”Azərbaycanda keçiriləcək mötəbər tədbir olan COP29-la parlament seçkilərinin vaxtı eyni zaman kəsiyinə təsadüf etdiyi üçün seçkilərin önə çəkilməsi barədə qərar verilə bilər”, - M.Pənahov əlavə edib.

Xatırladaq ki, bu ilin noyabrında Azərbaycan COP29-a ev sahibliyi edəcək. Konfrans Bakı Olimpiya Stadionunda baş tutacaq.



Bəzi iddialara görə, COP29 səbəbindən parlament seçkilərinin yay aylarında, uzaqbaşı, sentyabrın əvvəllərində keçirilməsi sürpriz olmayacaq.

Sürprizin qarşıdakı seçki zamanı yaşanacağı proqnozlaşdırılır. Söhbət bir sıra millət vəkillərinin mandatsız qalma ehtimalının yüksək olmasından gedir.

Onların arasında isə xüsusilə biznesmen-deputatların varlığı ön plana çıxır.

”Unikal” bu sayından etibarən qarşıdakı aylarda keçirilməsi gözlənilən parlament seçkilərində mandatdan məhrum olacağına dair iddialar dolaşan millət vəkilləri ilə bağlı yazıların dərcinə başlayır.

Qeyd edək ki, əksər qaynaqlar Milli Məclisin hazırkı üzvləri arasında yenidən mandat qazanmaq şansı ən az olanlar arasında ilk yerdə son illər hətta beynəlxalq miqyasda qalmaqallar yaşayan, daha dəqiq desək, varidatı britaniya məhkəmələrində araşdırma predmetinə çevrilən Cavanşir Feyziyevi işarə edirlər. Elə bu ilin martın 8-də Böyük Britaniya məhkəməsi Londonda deputat Cavanşir Feyziyev və həyat yoldaşına məxsus 50 milyon dollar dəyərindəki mülkə həbs qoyulması ilə bağlı qərarı qüvvədə saxlayıb. Məhkəmə tərəfindən Feyziyev və həyat yoldaşının bu mülkləri çirkli pulların yuyulması yolu ilə əldə etdiyinə dair ciddi dəlillərin mövcudluğu iddia olunur.

Feyziyev ailəsinin vəkili həbs qərarının ləğvi üçün vəsatət təqdim etsə də, məhkəmə martın 8-də vəsatəti rədd edib.

Bu ilin fevralında isə Böyük Britaniya məhkəməsi Londonda Azərbaycan Milli Məclisinin üzvü, iş adamı Cavanşir Feyziyevə məxsus 22 mülkə həbs qoyub. Həmin vaxt ”AzPolitika.info” nun xəbərinə görə Britaniya mənbələri Feyziyev və həyat yoldaşının “qanunsuz əldə etdikləri gəlirlə” əmlak almaqda şübhəli bilindiklərini qeyd edirlər.

Ekspertlərin fikrincə, Feyziyev və onun ailə üzvlərinin adına rəsmiləşdirilən daşınmaz əmlakın ümumi dəyəri 63 milyon dollardan çoxdur. Məlum olub ki, 2023-cü ilin iyununda London məhkəməsi Böyük Britaniya Milli Cinayət Agentliyinin (NCA) iddiası əsasında bu əmlakı dondurub.

Bu qərardan Cavanşir Feyziyevin vəkillərinin verdiyi apellyasiya şikayətinə hakim Naycel Poul tərəfindən baxılır. İddiaçının vəkilləri NCA-nın “hüquqi prosedurlara düzgün əməl etmədiyini” bildiriblər.

Qeyd edək ki, Cavanşir Feyziyev və onun ailə üzvlərinin işi üzrə əvvəllər Böyük Britaniya Milli Cinayət Agentliyinin təşəbbüsü ilə başlanmış məhkəmə prosesi artıq yekunlaşıb. Məhkəmənin qərarına əsasən, Feyziyev və ailə üzvlərinin London banklarındakı hesablarında olan on milyonlarla dollara həbs qoyulub. Lakin Feyziyevin bank hesablarındakı pul vəsaitləri ilə bağlı məhkəmə prosesi başa çatdıqdan az sonra NCA agentliyi Milli Məclisin deputatını və onun ailə üzvlərini təqib etməkdə davam edib və sonda onların Londonda malik olduğu əmlakı dondurmağa nail olub.

Məhkəmənin qərarına əsasən Feyziyevin və onun həyat yoldaşının adına rəsmiləşdirilmiş daşınmaz əmlak satıla və ya heç kimə hədiyyə edilə bilməz. Milli Cinayət Agentliyinin nümayəndələri deyiblər ki, Feyziyevin əmlakının qanunsuz əldə edilməsinə dair əllərində “inandırıcı sübutlar” var.

Feyziyevin dondurulmuş mülklərinin ən bahalısı Londonun eksklüziv “Chelsea Barracks” kompleksində 2020-ci ildə 26 milyon funt sterlinqə (33,4 milyon dollar) alınmış iki iqamətgahdır. Digər dondurulmuş əmlaklara Feyziyevin Böyük Britaniya paytaxtının şimal-qərbindəki yaşayış kompleksində aldığı on doqquz (!) mənzil daxildir.

Hərçənd, biznesmen-deputat özü barədə bütün bu qalmaqalları demək olar sükutla qarşılayır və reputasiyasını elmi yaradıcılıq fəaliyyəti (!) ilə sığortalamağa çalışır. Son olaraq o, Azərbaycan Yazıçılar Birliyi (AYB) rəhbərliyinin təklifi ilə Mahmud Kaşğari adına Beynəlxalq Fonda prezident təyin olunub və bu təyinat geniş müzakirələr doğurub. Ötən il isə Cavanşir Feyziyevin beş cilddən ibarət “Türk dünyası” adlanan əsərlərinin çapdan çıxdığı bildirilmişdi. Lakin bütün bunların adı ətrafında çoxsaylı qalmaqalların yaşandığı biznesmen-deputatın yenidən mandat qazanmasına kömək edibetməyəcəyi naməlumdur...

***Sənan Mirzə***

# Şəhid ailəsinin üzvləri özəl universitetlərdə təhsil haqqından azad edildi



***Şəhid ailəsinin üzvlərinin özəl universitetlərdə pulsuz təhsil almasına dair qanun təsdiqlənib.***

”Unikal” xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev “Təhsil haqqında” qanunda dəyişiklik edilməsi barədə Qanunu imzalayıb.

Dəyişiklik sosial müdafiəyə xüsusi ehtiyacı olan bir sıra şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Sənədə əsasən, yeni imtiyaz olaraq özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində şəhid ailəsinin üzvlərinin, peşə təhsili müəssisələrində ”Müharibə veteranı” adı almış şəxslərin, özəl peşə təhsili müəssisələrində isə əlilliyi olan şəxslərin, 20 yaşına çatmamış və orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş valideyni olan, aylıq gəliri yaşayış minimumundan aşağı olan şəxslərin ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil xərclərinin dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi nəzərdə tutulur.

Qeyd edək ki, “Təhsil haqqında” qanuna dəyişikliklə bağlı layihə Milli Məclisin mayın 7-də keçirilən iclasında qəbul edilib.

# Mustafa Abbasbəyli ilə bağlı rəsmi açıqlama



***Xəbər verdiyimiz kimi, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli vəzifəsindən azad edilib. O, Mədəniyyət Nazirliyi Aparatının rəhbəri təyin olunub.***

Mədəniyyət Nazirliyi təyinatla bağlı açıqlama yayıb. Bildirilib ki, mədəniyyət naziri Adil Kərimlinin müvafiq əmri ilə Mustafa Abbasbəyli bu vəzifəyə təyin edilib.

Qeyd olunub ki, Mustafa Aslan oğlu Abbasbəyli 1980-ci ildə anadan olub. 1996-2000-ci illərdə Xəzər Universitetinin Hüquq və sosial elmlər fakültəsində beynəlxalq hüquq ixtisası, 2000-2001-ci illərdə Türkiyənin Ege Universitetinin (İzmir) Türk dili və ədəbiyyatı fakültəsində türk dili ixtisası üzrə təhsil alıb. 2001-2003-cü illərdə isə Ankara Universitetinin Hüquq fakültəsində xüsusi hüquq ixtisası üzrə magistratura pilləsində oxuyub. 2009-cu ildə dissertasiya müdafiə edərək hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb.

M.Abbasbəyli 2019- 2020-ci illərdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müşaviri vəzifəsində çalışıb. 2020-ci ildən son təyinatadək Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyi İdarə Heyətinin sədri vəzifəsində çalışıb. O, həmçinin 2007-ci ildən Azərbaycan Vəkillər Kollegiyasının üzvüdür. 50-dən artıq elmi əsərin, o cümlədən 2 kitabın müəllifi, 3 kitabın isə həmmüəllifidir.

# "Öz yerimə təyin etdiyim şəxs sənədləri saxtalaşdırıb" - Sümbülə Əliyeva

***Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Mahmud Ağalarovun sədrliyi ilə təqsirləndirilən Sümbülə Əliyevanın məhkəmə prosesi davam edib.***

”Unikal”ın məlumatına görə, sahid, hazırda vəkil işləyən Mirzəyev Ramiz Məmməd oğlu əvvəllər verdiyi hesabatlara uyğun olaraq maaşını aldığını, ödənilməyən 1076 manat pulun qaldığını, Sümbülə xanımdan heç bir şikayətinin olmadığını bildirdi. Sonra Anar Canməmmədov ifadə verərək bildirib ki, 2018-ci ildən Sümbülə xanımın sədr olduğu büroda işləyib, heç bir şikayətinin olmadığını qeyd edib. Mən Vəkillər Kollegiyasından heç bir pul tələbim yoxdur. Şahid qismində ifadə verən Samir Hüseynzadə bildirib ki, əvvəl verdiyi ifadəni təsdiq edir: ”Əmək haqqından 1950 manatdan 500 manat ödənilib. 2012-ci ilin iyul ayından həmin büroda işləmişəm. 2018-ci ilin 2-ci yarısına kimi büroda heç bir problem olmayıb. Əmək haqqını bank kartı ilə alırdıq”.

Sümbülə Əliyeva şahidlərin ifadələrinə belə cavab verib: ”Öz yerimə təyin etdiyim Sərdar müəllim bütün sənədləri saxtalaşdırıb”.

Məhkəmə prosesi 3 iyun tarixinə kimi təxirə salınıb.

***Azər İsrafilov***

17_27 IYUl-QARA.qxd 5/30/2024 9:48 PM Page 9



# Müharibə veteranları təhsil haqlarından azad olundular

***Müharibə veteranları üçün yeni güzəşt müəyyənləşib.***

"Unikal"ın xəbərinə görə, bu, Prezident İlham Əliyevin təsdiqlədyi "Təhsil haqqında" qanuna dəyişiklikdə əksini tapıb.

Qanuna əsasən, peşə təhsili müəssisələrində "Müharibə veteranı" adı almış şəxslərin ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək.

# Azərbaycan və Türkiyə arasında Birgə Daimi Komissiyanın iclası keçirilib

***Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi və Türkiyə Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlıq üzrə Birgə Daimi Komissiyanın 11-ci iclası keçirilib.***



Nazirlikdən "Unikal"a verilən xəbərə görə, iclasda iştirak etmək üçün Türkiyənin əmək və sosial müdafiə naziri Vedat İşıkhanın başçılıq etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdədir.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevlə V.İşıkhanın təkbətək görüşündə iki nazirlik arasında əlaqələrin mövcud vəziyyətinə, iclasın gündəliyinə dair fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən iclasda Azərbaycan və Türkiyə arasında dostluq, qardaşlıq, xalqların birliyi amilinə əsaslanan münasibətlərin iki ölkənin dövlət başçılarının birgə səyləri ilə daim inkişaf etdiyi bildirilib. 2021-ci il iyunun 15-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi ilə iki ölkənin münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəlməsindən məmnunluq ifadə olunub.

Ölkələrimiz arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində də fəal əməkdaşlığın, qarşılıqlı təcrübə mübadilələrinin həyata keçirildiyi diqqətə çatdırılıb. Artıq bu sahələr üzrə 7 əməkdaşlıq sənədinin imzalandığı, sosial müdafiə sahəsi ilə bağlı yeni saziş layihəsinin də hazırlandığı bildirilib.

İclasda iki nazirlik arasında qarşılıqlı təcrübə mübadilələrinin aparılması və birgə fəaliyyətin davam etdiriləräk genişləndirilməsinin önəmi vurğulanıb. Bu sahədə görülən işlərə, gələcək əməkdaşlıq istiqamətlərinə dair müzakirələr aparılıb.

Sonra S.Babayev və V.İşıkhan Birgə Daimi Komissiyanın 11-ci iclasının yekunlarına dair Protokolu imzalayıblar. Onlar keçirdikləri brifinqdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini, eyni zamanda əmək, məşğulluq və sosial müdafiə sahələrində əlaqələrin ildən-ilə genişlənməkdə olduğunu vurğulayıblar. Yeni imzalanan sənədin bu istiqamətdə töhfə verəcəyinə əminliklərini ifadə ediblər.

Protokola əlavə olunan 2024-2025-ci illər üzrə Tədbirlər Planında həmin dövrdə aktiv məşğulluq proqramlarının icrası, əməyin təhlükəsizliyi və gigiyenası, əmək bazarının təhlili, əmək miqrasiyası, peşə hazırlığı və əlilliyi olan şəxslər üçün peşə reabilitasiyası, sığorta-pensiya, əmək qanunvericiliyinə əməl olunmasına nəzarətin həyata keçirilməsi, "bir pəncərə" prinsipi əsasında dövlət sosial xidmətlərinin göstərilməsi, bu xidmətlərin elektronlaşdırılması və s. sahələrdə əməkdaşlığın, o cümlədən təcrübə və məlumat mübadilələrinin həyata keçirilməsi əksini tapıb.

# Anar Bayramovun rəhbəri olduğu qurumun tenderləri tənqid hədəfində

## Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi bu dəfə də 10 manatlıq şirkətə milyonluq sifarişi ilə gündəmə gəlib

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi ("VTEK"-red.) "Şəbəkə təhlükəsizliyi avadanlıqlarının satınalınması" tenderinin nəticələrini elan edib.***

Tenderin qalibi "B2B Group" MMC olub. Qalib şirkətlə 1 253 807 manat məbləğində müqavilə imzalanıb. "Fed.az"-ın məlumatına görə, "B2B Group" MMC 2019-cu ildə yaradılıb. Şirkətin nizamnamə kapitalı cəmi 10 AZN təşkil edir. Şirkətin qanuni təmsilçisi Ramal Bəşir oğlu Bəşirovdur.

Qeyd edək ki, Azərbaycanda



5, yaxud 10 manat nizamnamə kapitalı olan şirkətlərin dövlət qurumlarından milyonluq tenderlər "qazanması" artıq adi hala çevrilib. Son olaraq isə bu qəribəliyə Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi imza atıb.

Yeri gəlmişkən, adıçəkilən qurumun təcrübəsində bu ilk deyil. Məsələn, ötən il Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi "NSMedkial"MMC ilə satınalma müqaviləsi imzalamışdı. Həmin vaxt "Qaynarinfo" xəbər verirdi ki, maliyyə dəyəri 469 357.26 AZN, yəni təxminən yarım milyon olan müqavilədə tibbi avadanlıqların satınalınması nəzərdə tutulurdu. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarında isə göstərilir ki, "NSMedikal" MMC 23 may 2016-cı ildə qeydiyyata alınıb və onun da nizamnamə kapitalı 10 AZN-dir.

2022-ci ildə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi protez-ortez məmulatlarının istehsalında istifadə olunan komplektləşdiricilərin, xammal - materialların və bir sıra hazır reabilitasiya vasitələrinin alınması ilə bağlı elan etdiyi 2 açıq tenderə yekun vurduğu bildirildi. Tenderlərdən birinin qalibi olaraq isə "Metiz İmpeks" şirkətinin adı açıqlandı. Həmin vaxt bu qalib şirkətə 9,55 milyon manat ödəniləcəyi də məlum olmuşdu. Lakin yenə də ortada diqqətçəkən nüans vardı. Belə ki, yerli medianın araşdırmalarına baxmayaraq Dövlət Vergi Xidmətinin Kommersiya qurumlarının dövlət reyestrində "Metiz-İmpeks" MMC haqqında hər hansı məlumata rast gəlinmədiyi aydınlaşmışdı.

Məsələ bununla da bitmirdi. 2021-ci ildə də Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik Bərpa Mərkəzi "Protez-ortopedik məmulatlarının istehsalında istifadə olunan komplektləşdiricilər, xammal-materiallar və eləcə də bir sıra hazır reabilitasiya vasitələri"nin satın alınması üçün elan etdiyi tenderi yekunlaşdırmış, qalib olaraq yenə "Metiz-İmpeks" MMC-ni seçmişdi. Həmin vaxt "Marja.az" saytı qalib şirkət ilə məbləği 7 milyon 42 min 99 manat olan müqavilə imzalandığını xəbər vermiş və əlavə etmişdi ki, Dövlət Vergi Xidmətinin Kommersiya qurumlarının dövlət reyestrində "Metiz-İmpeks" MMC haqqında məlumatlar öyrənmək mümkün deyil.

Onu da deyək ki, ümumiyyətlə son illərdə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən keçirilən tender müsabiqələri ilə bağlı tənqidlərin artdığı müşahidə olunur. Məsələn, bu ilin əvvəlində qurumun 3,3 milyon manatlıq açıq tenderi də müzakirə predmetinə çevrilmişdi. Qalibi fiziki şəxs Ziyafət İsa oğlu Fərzəliyev (VÖEN - 1803349532) olan həmin tender müsabiqəsinin şərtlərinə görə Ziyafət Fərzəliyev Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin tabeliyində olan reabilitasiya müəssisələrində reabilitasiya xidməti alan şəxsləri hazır yeməklə təmin edəcək.

Bu barədə rəsmi məlumatda bildirilirdi ki, Ziyafət Fərzəliyev bir il müddətində həftədə 7 gün olmaqla 319 min 667 ədəd hazır yemək satacaq. Bu yeməklərin 285 min 357 ədədi böyüklər, 34 min 310 ədədi uşaqlar üçün nəzərdə tutulur.

Agentlik satın alacağı yeməklər üçün Ziyafət Fərzəliyevə 3 milyon 336 min 258 manat 19 qəpik ödəyəcək. Açıqlanan rəqəmlərdən də göründüyü kimi 1 ədəd yeməyin orta qiyməti 11,4 manat olacaq. Bu isə yüksək məbləğ kimi qiymətləndirilmişdi.

O da maraqlıdır ki, ötən il də Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi reabilitasiya müəssisələrində reabilitasiya xidməti alan şəxslər üçün hazır yeməkləri Ziyafət Fərzəliyevdən alıb. 2023-cü ildə Ziyafət Fərzəliyev Agentliyə 1 milyon 828 min 536 manat 85 qəpik qarşılığında 175 min 200 ədəd hazır yemək satıb...

Xatırladaq ki, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə Anar Bayramov rəhbərlik edir. 49 yaşlı Bayramov 2021-ci ildə adıçəkilən qurumun İdarə Heyətinin sədri vəzifəsinə təyin olunub. O vaxtilə , daha dəqiq desək, 2009-cu ildə "A-Group" Sığorta Şirkətinin İdarə Heyətinin sədri postunu da tutub. Hazırkı vəzifəsinə qədər əmək və əhalinin sosial müdafiəsi nazirinin müşaviri vəzifəsində çalışıb.

***Toğrul Əliyev***

# Nəriman Əliyevin uğursuz cəhdi

## Sabiqlərin izi ilə: keçmiş deputatın yüksək vəzifəyə yolunu hansı qalmaqallar kəsib?

***"Unikal" qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz sabiq millət vəkili Nəriman Əliyev haqqındadır.***

Azərbaycan Respublikası Milli Məclisinin IV və V çağırış deputatı olmuş Nəriman müəllim 1968-ci il avqustun 30-da Masallı şəhərində doğulub. Bakı Yeyinti Sənayesi Texnikumunu, sonralar isə Cənubi Rusiya Humanitar İnstitutunun Hüquq fakültəsini və "Odlar Yurdu" Universitetinin Hüquq fakültəsini bitirib. 1991-1998-ci illərdə sahibkarlıq fəaliyyəti ilə məşğul olub, 1999-cu ildən "Nur-M" Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru vəzifəsində çalışıb.

İlk dəfə 2010-cu ildə deputat mandatı qazanan Əliyev Milli Məclisin susqun üzvlərindən sayılıb. Onun adı mediada bir qayda olaraq deputat-biznesmen kimi keçib, elə gündəmə də daha çox biznes fəaliyyəti ilə bağlı xəbərlərlə gəlib.

2015-ci ildə ikinci dəfə Milli Məclisin üzvü seçilən Nəriman müəllimin deputatlıq karyerası bitdikdən sonra isə onun adı ətrafında başqa qalmaqallı hadisələr baş verib. Bunun kulminasiya nöqtəsi isə sabiq millət vəkilinin özünə məxsus "Ştutqart" MMC-nin anbarının yaxınlığında yerləşən 37 ədəd ağacı kəsməkdə, 64 işçinin 76 min manat maaşını verməməkdə ittiham edilməsi idi. Həmin vaxt N.Əliyev bu iddianı irəli sürən şəxsləri və bacısı oğlu Əfqan Abdullayevi 25 milyonluq yeyintidə günahlandırırdı.

Belə ki, həmin şirkətin keçmiş əməkdaşı Abutalıb Ağayev iddia edib ki, N.Əliyev paytaxtın Nərimanov rayonu, Ələsgər Qayıbov küçəsi "10 C" ünvanında yerləşən boş ərazini özəlləşdirərək öz adına rəsmiləşdirib: "Orada 941.5 kvadratlıq iki mərtəbədən ibarət anbar, 132.2 kvadratlıq iki mərtəbədən ibarət ofis binası inşa edib. Bundan sonra, 2020-ci ilin aprel ayında geridə qalan boş sahəni hündür hasara almaqla bu hissədə yerləşən 37 ədəd bir neçə illik, böyük ağacları kəsərək tikinti aparmaq üçün hazır vəziyyətə gətirib. Bununla bağlı müraciətimizdən sonra mütəxəssislər əraziyə gələrək baxış keçirib".

A.Ağayevin sözlərinə görə, N.Əliyev ağacları kəsdikdən sonra "burada ağacların olduğu unudulan kimi tikintiyə başlayacağıq" deyib: "Ağaclar kəsilib, Hövsanda boş torpaq sahəsinə yığılıb. 37 ədəd ağacı kəsməklə ekologiyaya vurduğu ziyana görə Nəriman Əliyev cinayət məsuliyyətinə cəlb olunmalıdır".

Keçmiş deputat Nəriman Əliyev isə "Qafqazinfo"ya açıqlamasında ağac kəsdirməsi iddialarını qəbul etməyib, həmin obyektin 2004-cü ildə tikildiyini, özünə məxsus olduğunu deyib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Təhlükəsizlik xidmətinin rəisi Hikmət Əlizadə isə bu qalmaqalın ardınca KİV-ə bildirmişdi ki, sözügedən məsələ ilə bağlı hazırda araşdırma aparılır.

Keçmiş deputatın bacısı oğlu Əfqan Abdullayev və onun işçisi Abutalıb Ağayevlə bağlı iddiası da ilginc idi. Sitat: " Mən "Ştutqart" MMC-nin



təsisçisiyəm və bacım oğlu Əfqan Abdullayevi də direktor təyin etmişdim. Abutalıb Ağayev də şirkətin əməkdaşı olub. Onlar birlikdə şirkətin 10 milyon manatdan çox pulunu mənimsəyiblər. Bura özəlləşəndən sonra biz şirkətə dəyən ziyan haqda məlumat almışıq və DİN-ə müraciət etmişik. Həmin işdə də bu şəxslər ittiham olunurlar. İndi buna görə də onlar məni bu yolla şantaj edirlər".

Ə. Abdullayev isə bu iddiaları yalanlamışdı və hər hansı cinayət işinin açılmadığını, yeyintiyə sabiq deputatın özünün yol verdiyini demişdi.

Lakin ən maraqlısı odur ki, bir müddət sonra Nəriman Əliyevin Bakının Nərimanov rayonu ərazisində ağacları qanunsuz kəsdirməsi faktı ilə bağlı cinayət işi açıldığı aydınlaşdı. Bu barədə rəsmi məlumatda bildirilirdi ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyindən daxil olan məlumat və vətəndaş müraciəti əsasında Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində aparılan araşdırma başa çatıb. Müəyyənləşdirilib ki, Bakı şəhəri, Nərimanov rayonu, Ə.Qayıbov küçəsi 10C ünvanında "Ştutqart" MMC-nin qanuni təmsilçisinin xüsusi mülkiyyətinə verilən qeyri-yaşayış təyinatlı torpaq sahəsində həmin şirkətin vəzifəli şəxslərinin vəzifə səlahiyyətlərindən sui-istifadə etməsi nəticəsində meşə fonduna daxil olmayan müxtəlif diametrli 21 ədəd şam və sərv cinsli ağaclar qanunsuz kəsilərək götürülüb və bununla da külli miqdarda, yəni 11 min manat məbləğində ziyan dəyib.

Toplanan material üzrə Cinayət Məcəlləsinin 259.2.3 (qanunsuz ağac kəsmə- şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə), 259.2.4 (qanunsuz ağac kəsmə külli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanmaqla istintaqın aparılması üçün Baş Prokurorluğun İstintaq idarəsinə göndərilib.

N.Əliyevin işçiləri ilə yaşadığı ardıcıl qalmaqalların ardından bu dəfə onun mülklərinin siyahısı yayıldı. "Bizimyolinfo"da yer alan həmin siyahıda Bakı şəhəri, Məmməd Araz (keçmiş Teymur Əliyev) küçəsində 5 mərtəbədən ibarət yaşayış evi (faktiki yaşadığı ünvan), eyni küçədə 2 mərtəbədən ibarət avtomobil dayanacağı və mənzil, Nərimanov rayonu, Ələsgər Qayıbov küçəsində 46 sot boş torpaq sahəsi, 3 mərtəbəli anbar və 3 mərtəbəli ofis, eyni küçədə 8 hektar torpaq sahəsi, Babək prospekti, 2224-cü məhəllə, 37c ünvanında 4690.4 kv.m-lik 3 mərtəbədən ibarət qeyri-yaşayış binası, Yasamal rayonu, Mətbuat prospekti, 18 ünvanında 264.8 kv-lıq qeyri-yaşayış binası, Biləcəri qəsəbəsi, R.İsmayılov küçəsində bir zirzəmi daxil olmaqla 2 mərtəbədən ibarət qeyri-yaşayış sahəsi, Bilgəh qəsəbəsində 60 sot ərazisi olmaqla 4 mərtəbədən ibarət bağ evi - villa, o cümlədən, Sumqayıtda, Masallıda evlər, qeyri-yaşayış sahələri, torpaqlar və s. vardı. Həmçinin məlum olurdu ki, sabiq deputat lüks avtomobillərdən ("Mercedes S Class", "Lexsus 460", "Range Rover", "Toyota Camry" və s.) ibarət kolleksiyaya malikdir.

Sabiq deputat bu siyahıya hər hansı münasibət bildirməmişdi.

Yaşadığı çoxsaylı qalmaqalların isə Nəriman Əliyevə təsirsiz ötüşmədiyi bildirilir. Belə ki, onun biznesi son zamanlarda xeyli zəifləyib. Lakin ən maraqlı nüans başqadır. İddialara görə, sabiq millət vəkili 2020-ci ildə deputat mandatını itirdikdən bir müddət sonra Bakı rayonlarından birinin icra başçısı olmaq üçün hərəkətə keçib. Ancaq onun səyləri istənilən nəticəni verməyib. Bunda həlledici faktor isə böyük ehtimalla sabiq deputatın adı ətrafında səngiməyən skandallardır...

***Sənan Mirzə***




## "Kənddən Şəhərə" həftəsonu yarmarkası təşkil ediləcək

***1-2 iyun tarixlərində Kənd Təsərrüfatı Nazirliyi tərəfindən paytaxtda "Kənddən Şəhərə" həftəsonu yarmarkası təşkil olunacaq.***

"Unikal" xəbər verir ki, yarmarka 2 gün müddətində Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metro stansiyasının yanı) ünvanında saat 09:00-dan 19:00-dək fəaliyyət göstərəcək.

Müxtəlif regionlardan əvvəlcədən qeydiyyatdan keçən fermerlər burada yerli kənd təsərrüfatı və qida məhsullarını satışa çıxaracaqlar. Yarmarkada satışa çıxarılacaq məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Məhsulların keyfiyyəti ilə bağlı hər hansı sualı yaranan alıcılar Səyyar Qida Laboratoriyasının xidmətlərindən faydalana biləcəklər.

Yarmarkada ümumilikdə 20-dək regiondan 40-dan çox fermerin iştirakı gözlənilir. Fermerlər 100-ə yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcəklər.

Yarmarkanın təşkilində əsas məqsəd yerli fermerlər üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini təbii, yerli və sağlam kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir.

Qeyd edək ki, yarmarkada iştirak edəcək fermerlər ödənişsiz şəkildə piştaxta, tərəzi və digər lazımi avadanlıqlarla təmin olunacaqlar. "Kənddən Şəhərə" yarmarkalarında iştirak etmək istəyən fermerlər +994 50 400 88 99 çağrı mərkəzi ilə əlaqə saxlaya və ya yarmarkanın sosial şəbəkə hesabları üzərindən müraciət edə bilərlər.

## Ordumuzun döyüş texnikaları saz vəziyyətə gətirilir

***Plana uyğun olaraq, Azərbaycan Ordusunun bütün qoşun növləri, hərbi hissə və bölmələrində silah, döyüş və xüsusi texnikanın yay mövsümünə keçirilməsi üzrə kompleks tədbirlər keçirilir.***



"Unikal" MN-ə istinadən xəbər verir ki, hərbi hissələrdə fəaliyyət göstərən texniki xidmət məntəqələrində yay mövsümündə silah və texnikanın fasiləsiz, dayanıqlı istismarını təmin etmək məqsədilə iqlim şəraitinin xüsusiyyətləri də nəzərə alınmaqla yanacaq-sürtkü materialları dəyişdirilir, elektrik sistemlərinin vəziyyəti yoxlanılır, eləcə də onlara planlı şəkildə mövsümi qulluq göstərilir.

Bundan başqa, şəxsi heyətə mövsümə uyğun texnikanın istismarı qaydaları öyrədilir və təhlükəsizlik tədbirləri üzrə tələblər çatdırılır.

17_27 IYUl-QARA.qxd 5/30/2024 9:48 PM Page 11



# "Quska"nın həbs edilən vəkili hakim qarşısında



***Keçmiş vəkil Əkbərov Ruhid Rəşid oğlunun Bakı Ağır Cinayətlər Məhkəməsində külli miqdarda dələduzluq etmə maddəsi ilə məhkəməsi başlayır.***

"Unikal"ın məlumatına görə, Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi ilə təqsirləndirilən Ruhid Əkbərovun cinayət işi araşdırılmaq üçün hakim Azad Məcidovun icraatına verilib.

Qeyd edək ki, 13 saylı Vəkil Bürosunun vəkili olmuş Əkbərov Ruhid Rəşid oğlu bundan öncə də dələduzluq maddəsi ilə həbs edilib və 2021-ci il mart ayının 11-də Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 3 il müddətinə azadlıqdan məhrum edilmişdi. O, həmin vaxt iki vətəndaşa qarşı 50 min manatdan çox dələduzluq etməkdə təqsirli bilinirdi.

Xatırladaq ki, Ruhid Əkbərov 2018-ci ildə Türkiyədə saxlanılıb. O, Azərbaycana ekstradisiya edilən tanınmış sabiq deputat, "Quska" ləqəbli Hüseyn Abdullayevin cinayət işi üzrə istintaqın ilkin mərhələsində onun vəkili olub.

***Azər İsrafilov***

# Yeni mərkəzin tabeliyində hansı xəstəxanalar var?

***Aprelin 6-sı TƏBİB-in Müşahidə Şurasının qərarı və TƏBİB-in əmri ilə yaradılan Respublika Pediatriya Mərkəzi 8 xəstəxananın birləşməsi ilə fəaliyyət göstərir.***

TƏBİB-dən "Unikal"a verilən məlumata görə, Mərkəzin nəzdində Qarayev Uşaq Klinik Xəstəxanası, Uşaq Bərpa Mərkəzi, Nərimanov Uşaq Klinik Xəstəxanası, Nərimanov Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanası, Yasamal Uşaq Klinik Xəstəxanası, Uşaq Nevroloji Xəstəxanası, Sabunçu Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanası, Nizami Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanası var.

Qeyd edək ki, TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanovun təqdimatı ilə Respublika Pediatriya Mərkəzinə Azər Əhmədov direktor təyin edilib.

# "Minalar ətraf mühitə böyük zərər yetirir" - Samir Poladov

***Qarabağda 1,5 milyona yaxın yerüstü minanın zərərsizləşdirilməsi 12600 ton karbon tullantısı ilə nəticələnə bilər.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədr müavini Samir Poladov deyib. Onun sözlərinə görə, bu minaların humanitar problemlərdən əlavə, ətraf mühitə də zərər yetirdiyini vurğulayır. S.Poladov qeyd edib ki, Azərbaycan minatəmizləmə problemlərinin həlli üçün, əvvəlki kimi, beynəlxalq birlik və donorlarda iştirak etməlidir. "Ümid edirik ki, bu maliyyə dəstəyi yaxın illərdə artacaq", - deyə o əlavə edib.

# Daha 15 ailə Şuşaya çatdı

***Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Böyük Qayıdış çərçivəsində keçmiş məcburi köçkünlərin Şuşa şəhərinə qayıdışı davam edir. Mayın 30-da növbəti köç karvanı Şuşa şəhərinə çatıb.***

"Unikal" xəbər verir ki, Şuşa şəhəri doğma sakinlərini qarşılamağa davam edir. Bu gün 15 ailə olmaqla, 57 nəfər Şuşa sakini öz yurduna qovuşub. Köç karvanı respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub. Şuşa şəhərinə çatan ailələr böyük coşqu ilə qarşılanıblar, onlar doğma yurda qovuşmağın sevincini yaşayıblar.

Bununla da Şuşa şəhərində 105 ailənin, yəni 406 nəfərin daimi məskunlaşması təmin edilib.

**ELAN**

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən "Dünya Tikinti" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus (VÖEN 2007203161) Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işlərini həyata keçirmək üçün təqdim edilmiş 16 Mart 2022-ci il tarixli EL-136/2022 saylı LİSENZİYA ehtiyatsızlıq səbəbilə itirilmişdir

Əlaqə nömrəsi 077 724 00 41

# İlqar Mustafayevin işdən çıxarılmasının sirri açıldı

## Dənizkənarı Bulvar İdarəsindəki yoxlamalar nələri üzə çıxardı?



***Ölkə başçısı bu il yanvarın 29-da İlqar Mustafayevi Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin sədri postundan azad etdi. Prezidentin başqa bir sərəncamı ilə həmin posta Xanlar Ağalarov təyin olunub. Xanlar Ağalarov bundan öncə Mədəniyyət Nazirliyinin Aparat rəhbəri vəzifəsində çalışıb.***

İ.Mustafayevin vəzifəsindən azad edilməsi ilə bağlı "Unikal" qəzetindəki məqalədə yazmışdıq ki, son illərdə Dənizkənarı Bulvar İdarəsindən müəyyən şikayətlərin olduğu sirr deyildi. Belə ki, 2016-cı ildə Əfqan Şahmarov adıçəkilən idarənin rəisi vəzifəsindən azad edilib, həmin posta İlqar Mustafayev təyin olunmuşdu. Sonuncunun rəhbərliyi dövründə belə şikayətlər daha da intensivləşmişdi. Söhbət ilk növbədə bulvar ərazisindəki obyektlərdə qiymətlərin hədsiz baha olmasından gedir.

Uzağa getməyək, elə ötən ilin yayında həmin bahalıq əməlli-başlı narazılığa səbəb olmuşdu. Belə ki, yerli KİV-in araşdırmaları zamanı aydınlaşmışdı ki, Dənizkənarı Milli Parkda ən çox tələbat olan 0,5 litrlik sular 50 qəpikdən 60 qəpiyə qədərdir. Xatırladaq ki, suyun öz qiyməti 20 qəpikdir. Çips və müxtəlif xırdavatlar 80 qəpikdən 2 manata qədər, "pambıq" 1 manatdır. Adətən ən çox satılan popkorn isə 1 manatadır. Kafe və restoranlarda isə qiymətlər insanı yeməmişdən "doyurur". Bir şiş kabab 6 manatdan yuxarı, bir stəkan təbii şirə 2 manat, meyvə salatı 10 manat, çay dəstgahı 12-15 manat civarında dəyişir. Bulvar ərazisində siqaret almaq istəyənlər gərək bir az çox pul ödəsinlər. Hər siqaretin üstünə 40 qəpik pul qoyulur.

Əyləncəyə gəlincə, gəmi ilə gəzmək istəyənlər 1 saata 4 manat, uşaqlar üçün 2 manat pul ödəməlidir. Yarım saat gəmidə vaxt keçirtmək istəyənlər 2 manat, uşaqlar üçün 1 manat xərc çəkməlidir. Ən çox karusel və attraksionlarda əylənməyi üstün tutanlar 6 dəqiqə üçün pul ödəməlidir. Bu qiymət, demək olar ki, bütün karusellərdə beledir. Yalnız çox da maraq kəsb etməyən karusellərdə qiymət nisbətən aşağıdır. Uşaqlar üçün nəzərdə tutulan karusel isə 4 dəqiqəyə 1 manatdır.

Ümumiyyətlə isə araşdırmalardan belə məlum olmuşdu ki, Dənizkənarı Milli Parkda 2 nəfər orta səviyyəli dincəlmək üçün ən azı 50 manat xərcləməlidir.

Yüksək qiymətlərlə bağlı narazılıqlara isə İ.Mustafayevin zamanında Dənizkənarı Bulvar İdarəsindən ənənəvi cavab verilirdi. Bildirilir ki, onlar bulvar ərazisindəki obyektlərin fəaliyyətinə müdaxilə edə bilməzlər, çünki bazar iqtisadiyyatı şəraitində qiymətləri sahibkarlar özləri müəyyənləşdirirlər.

Düzdür, o vaxtlar Mustafayevin Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin sədri postundan azad edilməsində yüksək qiymətlərlə bağlı narazılıqların rol oynayıb-oynamadığını söyləmək çətin idi. Lakin bu günlərdə sözügedən mövzuda daha maraqlı nüanslar ortaya çıxıb. Belə ki, Hesablama Palatası Dənizkənarı Bulvar İdarəsi və tabeliyində olan qurumlar üzrə dövlət vəsaitlərinin və əmlakının idarə olunmasının auditini həyata keçirib. Bu barədə "2023-cü ilin dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinə və 2023-cü il dövlət büdcəsinin icrasına dair illik hesabata Hesablama Palatasının rəyində qeyd edilib.

Bildirilib ki, qeyri-büdcə gəlirlərinin tərkib hissəsi kimi sahibkarlıq fəaliyyətindən əldə olunmuş pul vəsaitlərinin məbləğinin dövlət sifarişi üzrə dövlət büdcəsindən maliyyələşən gəlirlərə nisbətinin artmasına baxmayaraq, dövlət büdcəsinin vəsaitlərindən asılılığın tədricən (müvafiq hədlərdə) azaldılmasına nail olunmamaqla, asılılıq səviyyəsi artıb. Həmçinin, hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun qeyri-büdcə gəlirləri üzrə əlavə potensialın da mövcudluğu şəraitində əməyin ödənişi və mükafatlandırılması xərclərinin qeyri-büdcə mənbələri hesabına maliyyələşdirilməsində irəliləyişlər əldə olunmayıb. Bu isə "Hüquqi nəticə yaradan hərəkətləri dövlətin adından həyata keçirən, Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxsin (statusu Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilən, habelə dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki publik hüquqi şəxslər istisna olmaqla) işlər görülməsindən və xidmət göstərilməsindən əldə etdiyi vəsaitin (o cümlədən tutulan xidmət haqlarının) həmin publik hüquqi şəxsin sərəncamında qalan hissəsindən istifadə Qaydası"nın tələblərinin (3.1-ci bəndinin) pozulması deməkdir.

Ehtimal etmək olar ki, İ.Mustafayevin işdən azad olunmasında məhz Hesablama Palatasının apardığı yoxlamalar nəticəsində aşkarlanan nöqsanlar həlledici rol oynayıb.

***Sənan Mirzə***

**5.3.8. Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Qarabağ Universiteti bölgənin inkişafına və elmə böyük töhvələr verəcək

## Zəfər Hüseynov: "Məndən anket məlumatlarını aldılar, indi Qarabağ Universitetində çalışmaq ümidi ilə yaşayıram"




***İşğaldan azad olunmuş ərazilərə təhsil yenidən qayıdır. Dövlət başçısının Qarabağ Universitetinin fəaliyyətinin təşkili üçün maliyyə vəsaitinin ayrılması haqqında Sərəncam imzalaması, Qarabağ və Şərqi Zəngəzurda elm və təhsilə xüsusi diqqət ayrılacağından xəbər verir.***

Artıq mayın 22-də Qarabağ Universitetinin rektoru vəzifəsinə təyin edilmiş Şahin Bayramov Elm və Təhsil Nazirliyinin heyətinə təqdim olunub. Təqdimat mərasimində iştirak edən elm və təhsil naziri Emin Əmrullayev dövlət başçısının ali təhsil müəssisəsi ilə bağlı qarşıya qoyduğu tapşırıqlar barədə məlumat verib. Nazir Şahin Bayramova bu məsuliyyətli fəaliyyətində uğurlar arzulayıb. Şahin Bayramov da öz növbəsində göstərilən etimada görə Prezident İlham Əliyevə təşəkkür edib və yeni dövrün tələblərinə cavab verən universitet qurmaq üçün səylə çalışacağını bildirib.

Qarabağ Universitetinin rektorundan sonra əsas məsələlərdən biri də, bu universitetdə təhsilin necə təşkil olunacağı, keçmiş Xankəndi Pedoqoji İnstitutunun nüfuzunun necə bərpa olunacağı məsələsidir.

Qeyd edək ki, bir müddət əvvəl elm və təhsil naziri Emin Əmrullayev mətbuata açıqlamasında bildirib ki, Qarabağ Universiteti ilə bağlı proseslər davam edir. Artıq proqram rəhbərləri seçilib, bu həftə ərzində işə qəbul olunacaqlar. O bildirib ki, Qarabağ Universiteti ilə bağlı müxtəlif proqramların məzmunu, tədris planı hazırlanır: "Dövlət İmtahan Mərkəzi ilə razılaşdırılıb, artıq qəbul planı tam hazırdır. Universitetdə 6 fakültədə 10-dan artıq ixtisas üzrə tədris aparılacaq. İnfrastruktur istiqamətində də işlər davam edir".

Nazir Qarabağ Universitetində əlavə vakant yerlərin açılacağını da diqqətə çatdırıb: "Həmin ərazilərə köçürüləcək insanlar üçün texniki vakant yerlər, bütün ölkə üçün isə akademik vakant yerlər açılacaq".

Nazir həmçinin qeyd edib ki, Qarabağ Universitetində çalışacaq müəllim və işçi heyəti yaşayış yeri ilə təmin ediləcək. O bildirib ki, nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil almış, həmin müəssisələrdə akademik fəaliyyətlə məşğul olan azərbaycanlı ziyalıların bu universitetdə tədris prosesinə cəlbi nəzərdə tutulur: "Bildiyiniz kimi ötən gün artıq Qarabağ Universitetinə proqram rəhbəri vəzifəsi üzrə ilk vakansiya elan edilib. Digər vakansiyalar da açıq şəkildə elan ediləcək. Əsasən, yaxın ərazilərdən olan professor-müəllim heyətinin prosesə cəlb edilməsi nəzərdə tutulur. Ali təhsil müəssisəsi tələbə-müəllim əməkdaşlığı əsasında qurulacaq və burada yeni tədris modelləri tətbiq olunacaq".

Qarabağ Universitetində xarici ali təhsil müəssisələrində işləyən ziyalılarla yanaşı, keçmiş Xankəndi Pedoqoji İnstitutunun pedoqoji heyəti də fəaliyyət göstərməyə hazırdır.

Xankəndi Pedoqoji İnstitutunda müəllim işləmiş Zəfər Hüseynov "Unikal" qəzetinə müsahibəsində bildirib ki, bir müddət öncə onu Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinə dəvət ediblər. Onun sözlərinə görə, Agentlikdə onunla bu mövzuda söhbət aparılıb.

"Ay yarım öncə məni Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinə dəvət etdilər.Orada da bildirdim ki, mən hər zaman Qarabağ Universitetində fəaliyyət göstərməyə hazıram. Məndən anket məlumatlarını aldılar, öz təkliflərimi bildirdim. Nəinki mən, keçmiş Xankəndi Pedoqoji İnstitutunun pedoqoji heyəti hər zaman Qarabağ Universitetində işləməyə can-başla hazırıq. Bizim ürəyimizdə illərdir ki, Qarabağ yanğısı var. Qarabağa ali təhsilin yenidən qayıtması möhtəşəmdir. Bu Qarabağ bölgəsinin inkişafı üçün çox mühüm amildir" deyə, Zəfər müəllim bildirib.

O, həmçinin qeyd edib ki, Xankəndidə Qarabağ Universitetinin yaradılması tarixi reallıqdan doğan sosial sifarişdir: " Bu barədə sərəncam Qarabağın sosial-iqtisadi, elm və təhsilin inkişafı, eləcə də ziyalı ordusunun formalaşması baxımından çox vacibdir. Mən bu universiteti yüksək səviyyəli ali təhsil müəssisəsi kimi təsəvvür edirəm. Xankəndidə institutda işləmiş müəllimlərin bir hissəsi vəfat etsə də, qalanları, eləcə də o institutu vaxtilə bitirən məzunlar arasında dosent, professorlar var. Onların hamısı Qarabağ Universitetində işləməyə hazırdırlar. Mən də Xankəndidə təkrar dərs deyəcəyim günləri səbirsizliklə gözləyirəm".

Məlumat üçün bildirək ki, Qarabağ Universitetinin qəbul planı təsdiqlənib. Qarabağ Universitetində 1200 tələbə təhsil alacaq. Nazir Emin Əmrullayev Qarabağ Universitetində tədrisi nəzərdə tutulan ixtisasların adını da açıqlayıb. O qeyd edib ki, bunlar İbtidai sinif müəllimliyi Məktəbəqədər təhsil; Riyaziyyat müəllimliyi; İnformatika müəllimliyi; Təhsildə sosial-psixoloji xidmət; İnformasiya texnologiyaları; Kompüter elmləri; Kompüter mühəndisliyi; Qida mühəndisliyi; Şəhərsalma; İnşaat mühəndisliyi; Beynəlxalq münasibətlər; Regionşünaslıq; Tarix; Kommunikasiya və rəqəmsal media; Beynəlxalq ticarət və logistika; Biznesin idarəedilməsi; İqtisadiyyat; Maliyyə, marketinq; Menecment; Mühasibat; Turizm işinin təşkili; Turizm bələdçiliyi ixtisaslarıdır.

Qeyd edək ki, prezident İlham Əliyev noyabrın 28-də Xankəndidə Qarabağ Universitetinin yaradılması barədə sərəncam imzalayıb.

Elm və təhsil naziri Emin Əmrullayev AMEA-nın ümumi yığıncağında deyib ki, Qarabağ Universitetinin timsalında elm və təhsilin inteqrasiyasını daha ağıllı qurmaq mümkündür:

"Elə edə bilərik ki, kiçik maraqlar böyük maraqları üstələməsin. Universiteti bir gündə qurmaq olmaz. 2024-cü ilin sentyabrında tələbələri, gənc alimləri, müəllimləri orada görmək istəyirik. Bu istiqamətdə bütün resurslarımızı sərf edəcəyik".

Xatırladaq ki, 1988-ci ilin oktyabrın 14-də artıq SSRİ Nazirlər Sovetinin sədri N.Rıjkovun 1208 saylı qərarı ilə Xankəndi Pedaqoji İnstitutu (XPİ ) müvəqqəti olaraq bağlanıb. Qərarın icrası SSRİ Xalq Təhsili Komitəsinə, Azərbaycan və Ermənistan Nazirlər Sovetinə tapşırılıb. Bu qərarın icrası il bağlı SSRİ Xalq Təhsili Komitəsi 17 oktyabr 1988-ci il tarixdə 6 maddədən ibarət 386 saylı qərar imzalayır. Qərarın 2-ci maddəsində İnstitutun 2 il müddətinə bağlanması, azərbaycanlı tələbələrin noyabr ayının 1-ə kimi Gəncə, erməni tələbələrin isə Ermənistanda İrəvan, Leninakan və Kirovakanın pedaqoji institutlarına köçürülməsi tapşırılır. Beləliklə, XPİ-nin 1200 tələbə, 100 nəfərə yaxın professor müəllim heyəti Gəncə Dövlət Pedoqoji İnstituna köçürülür.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Azad edilmiş ərazilərə 2025-ci ilin köç qrafiki müzakirə edildi

***Azərbaycan işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Şəhərsalma məsələləri üzrə İşçi Qrupun növbəti iclası keçirilib.***

"Unikal" xəbər verir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətovun sədrliyi ilə keçirilən iclasda Azərbaycan Prezidentinin xüsusi nümayəndələri, Prezident Administrasiyasının və digər aidiyyəti dövlət qurumlarının rəhbər vəzifəli şəxsləri, İşçi Qrupun üzvləri iştirak edib.

İclasda yaşayış məntəqələrində kənd təsərrüfatına yararlı torpaqların planlaşdırılması, işğaldan azad edilmiş ərazilərdə yanğın təhlükəsizliyi, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası üzrə 2024-cü ilin sonunadək əhalinin köçü nəzərdə tutulan yaşayış məntəqələrində görülən işlərin cari vəziyyəti, 2025-ci ilin köç qrafiki və digər məsələlər müzakirə edilib, müvafiq tapşırıqlar verilib.

## Azərbaycanda bu müddətdə qızların sayı 6% azalıb

***"Uşaqlarımız getdikcə azalır. Soruşacaqsınız necə? Axı hər gün neçə-neçə körpə doğulur. Hər qurulan yeni ailədə ən azı bir körpə dünyaya gəlir. Belə olan halda azalma nə dərəcədə realdır?".***



"Unikal" xəbər verir ki, bunu iqtisadçı-ekspert Samir Əliyev sosial şəbəkə hesabında yazıb. Ekspert bildirib ki, bunu statistikamız deyir:

"Məsələn, çox da uzaq olmayan dövrdə - 2005-ci ildə əhalinin 31,8 %-i 17 yaşına qədər uşaqlar təşkil edirdisə, 2022-ci ildə bu göstərici 26,3%-ə düşüb. Təsəvvür edin 19 il öncə əhalinin hər 3-cü şəxsi uşaq olduğu halda hazırda bu rəqəm hər 4-cü şəxsinə qədər azalıb".

Onun sözlərinə görə, azalma özünü daha çox qız uşaqlarında göstərir: "Bu müddətdə oğlan uşaqlarının sayı 2,1 % artdığı halda qızların sayı 6 % azalıb. Bununla da oğlan və qız uşaqları arasındakı gender fərqi 2,5%-dən 3,7 %-ə yüksəlib".



## Ağdaşda nəqliyyat, informasiya, rabitə xidmətlərinin həcminin statistikası

***Rayonun pərakəndə əmtəə dövriyyəsi və ödənişli xidmətlərin əsas göstəriciləri isə belə olub***

2024-cü ilin yanvar-mart aylarında avtomobil nəqliyyatı ilə 320,0 min ton yük, 3005,0 min sərnişin daşınıb.

Əvvəlki ilin müvafiq dövrünə nisbətən yük daşınması 5,6 faiz və ya 17,0 min ton, sərnişin daşınması isə 6,9 faiz və ya 194,0 min sərnişin artmışdır.

2024-cü ilin yanvar-mart ayları ərzində nəqliyyat və anbar təsərrüfatı sahəsi üzrə cəmi məhsul buraxılışı əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 15,3 faiz artaraq 1 milyon 581,2 min manat olmuşdur. Nəqliyyat və anbar təsərrüfatı sahəsi üzrə məhsul buraxılışının 1 milyon 354,0 min manatı və ya 85,6 faizi fiziki şəxslərin payına düşmüşdür.

İnformasiya və rabitə. 2024-cü ilin yanvar-mart aylarında informasiya və rabitə müəssisələri tərəfindən əhaliyə, müəssisə və təşkilatlara 153,7 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 14,8 faiz az informasiya və rabitə xidmətləri göstərilmişdir. Göstərilən informasiya və rabitə xidmətlərinin dəyərinin 129,6 min manatı və ya 84,3 faizi əhali tərəfindən ödənilmişdir.

Bu dövrdə informasiya və rabitə xidmətlərindən əldə olunan gəlirin 77,5 min manatı və ya 50,4 faizi internet xidmətlərindən, 49,3 min manatı (32,1 faizi) şəhər-kənd telefon rabitəsi üzrə xidmətlərdən, 26,9 min manatı (17,5 faizi) isə şəhərlərarası və beynəlxalq telefon rabitəsi üzrə xidmətlərdən daxil olmuşdur.

2024-cü ilin yanvar-mart aylarında ticarət şəbəkələrində əhaliyə 72 milyon 646,0 min manatlıq, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə qiymət indeksi nəzərə alınmaqla 0,5 faiz və ya 373,2 min manat çox istehlak malları satılmışdır.

Satılmış istehlak mallarının 16,1 faizi hüquqi şəxslərin, 83,9 faizi isə fərdi sahibkarlar, bazar və yarmarkaların payına düşmüşdür. Fərdi sahibkarlar, bazar və yarmarkalar üzrə əmtəə dövriyyəsinin 40,9 faizi fərdi sahibkarlara, 59,1 faizi isə bazar və yarmarkalara aiddir.

2024-cü ilin yanvar-mart aylarında əhaliyə 9 milyon 634,1 min manat həcmində ödənişli xidmətlər göstərilmişdir. Ödənişli xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə qiymət indeksi nəzərə alınmaqla 5,4 faiz və ya 482,4 min manat artmışdır. Əhaliyə göstərilən ödənişli xidmətlərin 2 milyon 974,3 min manatı və ya 30,9 faizi hüquqi şəxslər, 6 milyon 659,8 min manatı və 69,1 faizi isə fiziki şəxslər üzrə olmuşdur.

***Ağdaş Rayon Statistika İdarəsi***

# 36 minə yaxın abituriyent qəbul imtahanı verəcək

***Dövlət İmtahan Mərkəzi tərəfindən iyunun 2-də I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçiriləcək.***

DİM-dən "Unikal"a verilən xəbərə görə, imtahanlar Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Qazax, Ağstafa, Sumqayıt, Abşeron, Şamaxı, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Kürdəmir, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Masallı və Xaçmazda təşkil olunacaq.

İştirakçılar mayın 22-dən etibarən Dövlət İmtahan Mərkəzinin saytında "İmtahana buraxılış vərəqəsi"ni çap edə bilirlər.

"İmtahana buraxılış vərəqəsi"ndə imtahanın keçiriləcəyi tarix, şəhər (rayon), bina, zal, başlanma vaxtı və abituriyentin imtahan binasına gəlmə vaxtı və s. məlumatlar qeyd olunub.

Abituriyentlərin bir daha nəzərinə çatdırırıq ki, imtahan saat 10:00-da başlanır.

İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 09:45-də buraxılış rejimi başa çatır və bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

İştirakçıların imtahan binasına rahat şəkildə daxil olması üçün binaya müxtəlif gəlmə vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

Abituriyentlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:
- İmtahana buraxılış vərəqəsi;
- Şəxsiyyəti təsdiq edən sənədin əsli.




a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 149 imtahan binası, 2657 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 149 ümumi imtahan rəhbəri, 436 imtahan rəhbəri, 3312 nəzarətçi, 467 buraxılış rejimi əməkdaşı, 149 bina nümayəndəsi cəlb olunub.

I ixtisas qrupu üzrə imtahanda 30058, IV ixtisas qrupu üzrə imtahanda isə 5908 nəfər olmaqla, ümumilikdə 35966 abituriyentin iştirakı nəzərdə tutulur.

İmtahanda 43 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngəlli və digər) abituriyentlər də iştirak edəcək. Onların rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə isə fərdi nəzarətçilər təyin edilib. Hərəkət məhdudiyyətli abituriyentlərin bina və zala daxil olması və hərəkəti üçün də şərait yaradılıb. Bundan əlavə, sağlamlıq imkanları məhdud iştirakçılar üçün ayrılan nəzarətçilərlə xüsusi təlim keçirilib.

Hazırda qeyd olunan şəhər və rayonlarda imtahanlarda iştirak edəcək digər nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə təlim-seminarlar keçirilir. Bütün imtahan binalarına baxış keçirilir, imtahan zallarında abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılır. Təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahan mərkəzlərinə iyunun 1-də təkrar baxış keçiriləcək və imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə veriləcək.

İmtahanların gedişini işıqlandırmaq üçün 30 KİV nümayəndəsi DİM-də akkreditasiyadan keçib.

# Bakıda Ümumdünya Aeronaviqasiya Sammiti 2024 və CANSO-nun 28-ci İllik Ümumi İclası keçiriləcək

***11-13 iyun 2024-cü il tarixlərində Bakıda Ümumdünya Aeronaviqasiya Sammiti 2024 və CANSO-nun 28-ci İllik Ümumi İclası keçiriləcək. Tədbir "Azərbaycan Hava Yolları" QSC-nin "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsi (AZANS) tərəfindən təşkil olunacaq.***

Bu barədə "Unikal"a "Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətindən məlumat verilib.

Ekoloji davamlılıq məsələlərinə yönəlmiş tədbir mühüm qərarların verilməsi, bilik mübadiləsi və məhsuldar dialoqların aparılması məqsədilə hava hərəkətinə nəzarət sənayesinin dünya liderlərinin diqqətini cəlb etmək üçün nəzərdə tutulub. Tədbirdə 100-dən çox ölkədən 350-yə yaxın mülki aviasiya rəhbərlərinin iştirakı gözlənilir.

Qeyd edək ki, 2005-ci ildən CANSO-nun üzvü olan AZANS MDB və regionun bir çox digər ölkələrindən ilk aeronaviqasiya xidmətləri təminatçısıdır ki, CANSO tərəfindən Ümumdünya Aeronaviqasiya Sammiti 2024 və 28-ci İllik Ümumi İclasa ev sahibliyi etmək üçün seçilib.

"Bu ilin sonlarında dünya liderləri COP29 üçün Bakıda bir araya gələcəklər və beynəlxalq ictimaiyyətin diqqəti bu şəhərə yönələcək. İqlim dəyişikliyi bəşəriyyətin ən aktual problemlərindən biridir və aviasiya karbon emissiyalarının azaldılmasında əsas rol oynayır. Emissiyanın xalis sıfır ("net zero") səviyyəsinə çatdırılması planlanan 2050-ci ilin çox da uzaq olmadığını nəzərə alaraq aviasiyada bu hədəfə böyük diqqət ayırmaq lazımdır. Məhz bu səbəbdən də bu, AZANS-ın təşkil etdiyi CANSO Ümumdünya Aeronaviqasiya Sammitinin və 28-ci İllik Ümumi İclasının əsas mövzusu olacaq", - deyə CANSO-nun baş direktoru Saymon Hokkard qeyd edib.

Sammitdə aviasiya sənayesinin liderləri xalis sıfır emissiyalara nail olmaq üsullarına və ekoloji cəhətdən daha təmiz səmanın yaradılmasında texnologiyaların rolunu müzakirə edəcəklər.

"Biz fəxr edirik ki, şəhərimiz yaşıl hava məkanının gələcəyi və xalis sıfır aviasiya hədəflərinə töhfə verən rəqəmsal texnologiyalar ilə bağlı mühüm müzakirələr platformasına çevriləcək. Dayanıqlı aviasiyanın gələcəyinə dair məsuliyyətimizi dərk edərək biz beynəlxalq əməkdaşlıq imkanlarının yaradılmasına töhfə verməyə çalışırıq", - deyə AZANS-ın direktoru Fərxan Quliyev bildirib.

**AZANS haqqında**

"Azərbaycan Hava Yolları" QSC-nin tərkibinə daxil olan "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsi (AZANS) Azərbaycanın hava məkanında uçuşların təhlükəsizliyinə və xidmətinə cavabdeh olan qurumdur. AZANS bütün beynəlxalq aviasiya təşkilatlarının tələblərinə yüksək səviyyədə cavab verir.




Hazırda AZANS Azərbaycanın hava məkanında hər ay orta hesabla 18 min tranzit uçuşa xidmət göstərir ki, bu da ölkəmizin hava məkanını xarici aviaşirkətlər üçün daha da cəlbedici edir.

CANSO haqqında

CANSO - Beynəlxalq Mülki Aeronaviqasiya Xidmətləri Təşkilatı - hava məkanının idarə edilməsində qlobal səsdir və onun gələcəyini formalaşdırır. CANSO-nun üzvləri dünya hava trafikinin təxminən 90 faizini əhatə edir və aeronaviqasiya xidməti təminatçıları, hava məkanı istifadəçiləri və operatorları, aviasiya texnikası istehsalçıları və təchizatçılarını özündə birləşdirir. CANSO dünya miqyasında hava hərəkətinin idarəolunma səviyyəsini yüksəltmək üçün sənayenin nümayəndələrini bilik, təcrübə və innovasiya mübadiləsi məqsədilə bir araya gətirir.

# Vətənlə döyünən ürək...



*Vətənini canından artıq sevib, 44 günlük haqq savaşımızda onun yolunda şəhidlik zirvəsinə ucalan ölümsüz qəhrəmanlardan bir də Cavid Habil oğlu Hüseynovdur.*

Cəlilabad rayonu, Hamarqışlaq kəndində böyüyən bu, qeyrət mücəssəməsinin işıqlı dünyadan getməsi cismani oldu. Adı uşaqlıqdan hər daşına, qayasına vurulduğu doğma Azərbaycana sevgi nümunəsinə döyüb əbədi dillər düşdü . Həm də ölümündən sonra layiq görüldüyü "Vətən uğrunda", "İgidliyə görə", Füzulinin, Cəbrayılın və Şuşanın azadlığı medalları xalqımızın tarixinə qeyrət, hünər, şərəf səhifəsi kimi yazılan İkinci Qarabağ müharibəsində Cavid Hüseynovun göstərdiyi rəşadətinin gözəl nişanəsidir.

Mərdlik, cəngavərlik ruhu qanında olan Cavid Hüseynov cənnət məkan, əbədi-əzəli yurd yerimiz Qarabağı işğal edən düşməndən qisas almaq məqsədlə 2012-ci ildə hərbi xidmətə yollanıb. Cəbhə bölgəsində əlinə silah alanda Vətənə vicdanla, qeyrətlə xidmət edəcəyinə, nifrət bəslədiyi yağı düşmənə qarşı hər an amansız olacağına and içib.

Bəli, qəlbi Vətəninə, halal torpağına sevdalanan Cavid nümunəvi əsgər olaraq xidmət etdiyi hərbi hissədə hörmət, nüfuz qazanıb. Komandirlərin verdiyi tapşırıqları sözsüz yerinə yetirib, vacib təlimlərə həmişə həvəslə qatılıb, yüksək hazırlığı, çevikliyi onu çətin sınaqlardan üzüağ çıxardıb. Həmçinin qəlbində düşməndən qisas almaq alovu da bir an belə səngiməyib.

C. Hüseynov 2014-cü ilə əsgərlik borcunu şərəflə verib evə qayıdıb. Qaldı ki, canına yağı dadanmış yurdunun ağır günlərində kənarda durmağı heç cür vicdanına sığışdıra bilməyib. Vətən sevgisi, torpaqları azad etmək istəyi onu düşmənlə döyüşə səsləyib. Yenidən orduya qayıdıb, tank atıcısı kimi xidmətə başlayıb. Müxtəlif cəbhə bölgələrdə olub, hərbi təlimlərdə yüksək döyüş hazırlığı, xüsusi peşəkarlıq göstərib. Vətən üçün yaşamaq eşqini mərdliyi, cəsurluğu ilə sübuta yetirib.

2020-ci il sentyabr ayında Azərbaycan və Türkiyə ordusunun birgə keçirdiyi hərbi təlimdə uğur qazanıb, tank atışı üzrə Türkiyə komandanlığın təşəkkürünü alıb. Bütün bunlarla döyüş meydanında mübarizliklə düşmənə qalib gəlmək üçün hərbin sirlərinə mükəmməl yiyələnib.

...2020-ci ilin 27 sentyabrı. Artıq dığalardan qisas alaraq doğma Vətən torpaqlarını azad etmək məqam yetişıb. Minlərlə qeyrətli oğul bu günə hazır olduqları üçün həmin an odun-alovun içinə atılıblar. Cavid də onların arasında olmaqla. İgid tankçı düşmənə ilk ağır zərbəni endirib. Cəsurluq, rəşadət, şücaət 30 il Qarabağımızı əsarətdə saxlayan düşməni məhvə doğru aparıb. Cavidi isə Vətən sevgisi daha da coşdurub. Füzulidə bir neçə kəndin alınmasında əsl tarix yazıb. Döyüşdən-döyüşə bərkiyən tankçı Cavid hər gün düşmən üstünə qartal tək şığıyıb. Haqq savaşımızın birində tankı minaya düşüb zədələnib. Qaldı ki, o, düşmənin qarşısından geri dönməyi özünə ar bilib. Döyüşüb və qələbə qazanıb.

Cəsur tankçı 30 sentyabr günü də ermənilərin kabusuna çevrilib. Amma qəfil atılan mərmi bu səfər Cavidin tankını susdura bilib. Ürəyi ömrünün 26-cı baharında həmişəlik dayanmaqla vətənpərvərliyin ən ali məqamına yetişib. Son nəfəsə qədər vuruşub qanı tökülən yerdə isə daha bir bayrağımız ucalıb. Döyüş yoldaşlarına onun itkisi ağır olsa da, tankına Azərbaycan bayrağının rənglərində "Cavid" adını həkk ediblər...

***Zəfər Orucoğlu,***
***AJB üzvü***

# NİİM sürücülərə müraciət etdi

***DİN-in Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi sürücülərə müraciət edib.***

"Unikal" NİİM-ə istinadən xəbər verir ki, müraciətdə deyilir: "Yol-nəqliyyat hadisələrinin əsas səbəblərindən biri də avtomobillərin hərəkəti zamanı sürücülərin ara məsafəsinə düzgün əməl etməməsi və məcbur qalıb sərt tormozlamadan istifadə etməsidir. Növbəti belə bir qəza ötən gün axşam saatlarında Heydər Əliyev prospektində baş verib. Bir daha sürücülərimizin diqqətinə çatdırmaq istəyirik ki, bu qaydalara əməl etməmək bəzən ölüm və xəsarətlə nəticələnən yol-nəqliyyat hadisələrinin baş verməsinə və yollarda sıxlıqların yaranmasına gətirib çıxarır.



DİN-in Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi olaraq bütün sürücülərə "Yol hərəkəti haqqında" Qanunun 50-ci maddəsinə nəzər salmağı tövsiyə edirik.

Sürücü sürətdən və hərəkət şəraitindən asılı olaraq elə ara məsafəsi seçməlidir ki, qabaqda gedən nəqliyyat vasitəsi sürəti kəskin azaltdıqda və ya gözlənilmədən dayandıqda, onunla toqquşmanın qarşısını almaq mümkün olsun. Yol-nəqliyyat hadisəsinin qarşısını almaq üçün lazım olan hallar istisna edilməklə, nəqliyyat vasitəsini sərt tormozlamaq qadağandır".

# Azərbaycanda GPON tarifləri üzrə internetin sürəti artır

***Daima əlçatanlığı və sərfəliliyi artıran, xidmət və məhsullarını inkişaf etdirən "Aztelekom" MMC və "Bakı Telefon Rabitəsi" MMC internetin sürətini artırır.***

"Unikal" xəbər verir ki, qurumlar iyunun 1-dən etibarən qiymətləri sabit saxlamaqla GPON (Gigabit Passive Optical Network - Gigabit tutumlu Passiv Optik Şəbəkə) tarifləri üzrə təqdim olunan 30 Mbit/s internet sürətini 40 Mbit/s-ə, 50 Mbit/s internet sürətini isə 60 Mbit/s-ə qədər artıracaq.

Bu addım ölkəmizdə dünya trendləri ilə ayaqlaşma və əhalinin yüksəksürətli internetə olan tələbatında artım tendensiyasını nəzərə alaraq, göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsi və müştəri məmnuniyyətinin qorunması məqsədi daşıyır. Sözügedən yenilik nəticəsində müştərilərimiz üçün daha sürətli internet əlçatan olacaq.

Qeyd edək ki, "Aztelekom" və "Baktelecom" Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən həyata keçirilən "Onlayn Azərbaycan" layihəsinin əsas tərəfdaşlarındandır.

Layihə çərçivəsində ölkə ərazisində bütün ev təsərrüfatı və biznes subyektlərinin GPON və digər genişzolaqlı texnologiyalar vasitəsilə minimum sürəti 35 Mbit/s olan genişzolaqlı internetlə təmin edilməsi, yüksəksürətli internetdən istifadənin genişləndirilməsi və sabit genişzolaqlı internet abunəçilərinin faizinin artırılması planlaşdırılır.

Azərbaycanda ümumilikdə 2,29 milyona yaxın ev təsərrüfatı və biznes subyektinin genişzolaqlı internetə çıxış imkanı təmin edilib. Bu da ölkədə olan təsərrüfatların 78%-ni təşkil edir. Bakı şəhərində isə mövcud ev təsərrüfatı və biznes subyektlərinin 90,2%-nə GPON texnologiyası ilə yüksəksürətli internetə qoşulma imkanı yaradılıb.

Görülən işlərin 2024-cü ilin sonuna kimi yekunlaşacağı planlaşdırılır.

| № | Yeni sürət | "Aztelekom" GPON xidmətləri | Qiymət |
|---|---|---|---|
| 1 | 40 Mbit/s | İnternet | 18 AZN |
| | | İnternet + telefoniya | 21 AZN |
| | | İnternet + Rəqəmsal TV | 24 AZN |
| | | İnternet + Rəqəmsal TV + telefoniya | 27 AZN |
| 2 | 60 Mbit/s | İnternet | 26 AZN |
| | | İnternet + telefoniya | 29 AZN |
| | | İnternet + Rəqəmsal TV | 32 AZN |
| | | İnternet + Rəqəmsal TV + telefoniya | 35 AZN |

| № | Yeni sürət | "Baktelecom" GPON xidmətləri | Qiymət |
|---|---|---|---|
| 1 | 40 Mbit/s | İnternet | 18 AZN |
| | | İnternet + telefoniya | 21 AZN |
| | | İnternet + Rəqəmsal TV | 26 AZN |
| | | İnternet + Rəqəmsal TV + telefoniya | 29 AZN |
| 2 | 60 Mbit/s | İnternet | 26 AZN |
| | | İnternet + telefoniya | 29 AZN |
| | | İnternet + Rəqəmsal TV | 34 AZN |
| | | İnternet + Rəqəmsal TV + telefoniya | 37 AZN |

# Nöqsanlar aşkarlanan dönərxanaların fəaliyyəti məhdudlaşdırıldı

***Lənkəran şəhəri, "Böyük bazar" ərazisində fəaliyyət göstərən Qurbanov Elnur Abidin oğluna məxsus "Bazardönər" və Hüseynov Bəhruz Baba oğluna məxsus ictimai iaşə müəssisələrində yoxlama keçirilib.***

Bu barədə "Unikal"a Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) məlumat verilib.

Bildirilib ki, yoxlama zamanı qida təhlükəsizliyi sahəsində qüvvədə olan normativ hüquqi aktların, sanitariya norma və qaydalarının tələblərinin pozulduğu məlum olub. Belə ki, dönərxanaların qida təhlükəsizliyi qeydiyyatından keçmədən fəaliyyət göstərdiyi, emal zamanı istifadə olunan xammal və yarımfabrikatların saxlanma temperaturuna nəzarət edilmədiyi, qida ilə təmasda olan işçilərin tibbi müayinədən keçmədiyi və xüsusi geyimlə təmin olunmadığı, havalandırma sistemlərinin quraşdırılmadığı, mütəmadi təmizlik işlərinin aparılmadığı və digər nöqsanlar müəyyən olunub. Bişmiş mal əti və toyuq dönərindən götürülmüş nümunələrin Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasında müayinəsi nəticəsində toyuq əti dönərində insan sağlamlığı üçün təhlükəli hesab olunan E.Coli bakteriyası aşkarlanıb.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq səlahiyyətli şəxslər barəsində inzibati protokol tətbiq edilib, dönərxanaların fəaliyyəti məhdudlaşdırılıb.

17_27 IYUl-QARA.qxd 5/30/2024 9:48 PM Page 15





# Putinin Şimali Koreyaya səfəri hazırlanır

***Rusiya prezidenti Vladimir Putin Şimali Koreyaya səfər edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko jurnalistlərə bildirib.

Qeyd olunub ki, Rusiya prezidenti Vladimir Putinin KXDR və Vyetnama səfərlərinə hazırlıq qabaqcıl mərhələdədir.

Daha əvvəl Rusiya liderinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Putinin KXDR-ə rəsmi səfərə dəvət olunub və belə bir səfər hazırlanır.

# Türkiyədə FETÖ-yə qarşı əməliyyat: Saxlanılanlar var



***Türkiyə Daxili İşlər Nazirliyinin təşkil etdiyi FETÖ əməliyyatlarında çox sayda şübhəli müəyyən edilib.***

"Unikal" xəbər verir ki, FETÖ-yə qarşı son 4 gündə 17 vilayətdə keçirilən "Kıskaç-18" əməliyyatlarında şübhəli bilinən şəxslər saxlanılıb.

Türkiyə polisindən verilən məlumata görə, aparılan araşdırmalar nəticəsində Ankara, Antalya, Aydın, Balıkəsir, Bursa, Bitlis, Dənizli, Ədirnə, Qaziantep, Giresun, İstanbul, İzmir, Kayseri, Kütahya, Malatya, Şanlıurfa və Tekirdağ kimi şəhərlərdə FETÖ-yə qarşı "Kıskaç-18" əməliyyatlarında şübhəli bilinənlər müəyyən edilərək ümumilikdə 90 nəfər FETÖ üzvü saxlanılıb.

***Zərifə Nağıyeva***

# İran prezidentliyinə namizədlərin qeydiyyatı başladı

***İranda iyunun 28-nə təyin edilmiş prezident seçkilərində namizədliyini irəli sürmək niyyətində olanlar üçün beş günlük qeydiyyat müddəti başlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə İranın daxili işlər naziri Əhməd Vəhidi açıqlayıb.

Namizədlərin qeydiyyatı iyunun 3-də başa çatacaq. İyunun 4-dən iyunun 10-dək İran Konstitusiyasının Keşikçilər Şurası hər bir qeydiyyatdan keçən şəxsin lazımi tələblərə uyğunluğunu yoxlayacaq.

O cümlədən, 40 yaşdan 75 yaşa qədər ən azı magistr dərəcəsi olan şəxslər səsvermə üçün qeydiyyatdan keçə bilərlər. Şura ərizələrə baxdıqdan sonra İranın Daxili İşlər Nazirliyi təsdiq edilmiş namizədləri iyunun 11-də elan edəcək, ardınca isə seçki kampaniyası öz növbəsində iyunun 26-dək davam edəcək.

İyunun 28-də İranda növbədənkənar prezident seçkiləri keçiriləcək.

Qeyd edək ki, İran prezidenti İbrahim Rəisi helikopter qəzasında həlak olub, bundan sonra yeni seçkilərin keçirilməsi ilə bağlı qərar açıqlanıb.

***Ağarza Elçinoğlu***

# "Rus tərəfdaşlar dəmir yolunun bərpa olunacağına əmin ediblər" - Paşinyan

***"Baş nazirin müavini Mher Qriqoryan Rusiya Dəmir Yolları Şirkəti ilə əlaqə saxlayıb və rusiyalı tərəfdaşlar dəmir yolunun ən qısa zamanda bərpa olunacağına əmin ediblər".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan mayın 30-da hökumətin iclasında deyib.



Ermənistanın ərazi idarəetmə və infrastruktur naziri Qnel Sanosyan bildirib ki, Ayrım stansiyasından Alaverdiyə qədər olan dəmir yolunun bərpası xeyli vaxt aparacaq: "Yükün Ayrım stansiyasına daşınması üçün çarə tapmışıq, ona bitişik ərazidə çoxdan işləməyən körpü var, dəmir yolu körpüsüdür, onu transformasiya edirik ki, yük maşınları keçə bilsin. Yaxın 2-3 günə bitirəcəyik. Biz bu sxem üzrə razılaşdıq. Gürcüstanda da dəmir yolu zədələnib. Gürcüstanın baş nazirinin müavini ilə danışdım, dəmir yolu çərşənbə axşamına qədər işləyəcək".

Nazirin sözlərinə görə, hazırda Alaverdi şəhərində 250-yə yaxın könüllü çalışır.

***Ağarza Elçinoğlu***

# Çin Ukrayna ilə bağlı konfrans keçirəcək

***Çin münaqişənin həlli üçün Ukrayna və Rusiyanın iştirakı ilə konfrans keçirəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Çin Xalq Respublikası Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mao Nin bildirib.

"Biz hər kəsin bərabər əsasda iştirak edəcəyi həm Rusiya, həm də Ukrayna tərəfindən tanınan beynəlxalq konfransı təşviq edir və dəstəkləyirik", - deyə rəsmi qeyd edib. B

Bildirək ki, iyunun 15-16-da İsveçrədə Ukrayna münaqişəsinin həlli yollarının müzakirə olunacağı "sülh sammiti" keçiriləcək. Ümumilikdə 160 ölkədən nümayəndələr iştirak etmək üçün dəvət olunub. Ukrayna lideri Volodimir Zelenskinin sözlərinə görə, onlardan 90-ı indiyədək iştirakını təsdiqləyib. Rusiya və Çin konfransda iştirak etməyəcək. Bundan əlavə, Amerika prezidentinin sammitdə iştirak etməyəcəyi ehtimalı yüksəkdir.

***Gülayə Mecid***



# Böyük Britaniya parlamenti rəsmən buraxıldı

***Böyük Britaniyada parlament qarşıdan gələn növbədənkənar seçkilərlə əlaqədar rəsmən buraxılıb.***

"Unikal" xəbər verir ki, bu barədə qanunverici orqanın saytında bildirilir.

Mövcud qanuna görə, parlament ümumi seçkilərə 25 iş günü qalmış buraxılmalıdır. Baş nazir Rişi Sunakın təşəbbüsü ilə keçirilən növbədənkənar seçkilər iyulun 4-də baş tutacaq.

Sunak keçən həftə Böyük Brita-



niya kralı III Çarlzın parlamentin buraxılması tələbini təmin etdiyini açıqlamışdı.

Böyük Britaniya parlamentinin buraxılması avtomatik olaraq onun İcmalar Palatasındakı 650 yerin hamısının boşalması deməkdir. Seçkilərdən sonra iyulun 9-da parlament spiker seçmək və deputatların and içməsi üçün yeni tərkiblə görüşəcək.

Xatırladaq ki, bundan əvvəlki seçkilər 2019-cu ildə keçirilib. Həmin vaxt Boris Consonun rəhbərlik etdiyi Mühafizəkarlar Partiyası böyük qələbə qazanmışdı.

***Ağarza Elçinoğlu***

# Sərhəddəki 12 mövqe Azərbaycana verilir? - Ermənistandan rəsmi açıqlama

***Ermənistan hökuməti Geqarkunik Marzdakı bəzi müdafiə mövqelərinin Azərbaycana təhvil verilməsi vədi ilə bağlı məlumatları təkzib edir.***

"Unikal" xəbər verir ki, bu barədə hökumət erməni KİV-ə açıqlamayıb. "Bu gün KİV-də Geqarkunik bölgəsində bəzi müdafiə mövqelərinin təhvil verilməsi vəd edilməsi barədə yayılan məlumat tamamilə yalan məlumatdır", - məlumatda deyilir.

Xatırladaq ki, bundan əvvəl Ermənistan mətbuatında Geqarkunik bölgəsində tədqiqatçıların olması barədə məlumatlar yayılıb. Bildiirlib ki, bu ərazilərdən Azərbaycana 12 müdafiə mövqeyinin təhvil veriləcəyi vəd edilib.

***Ağarza Elçinoğlu***

# İsrail Qəzza zolağı ilə Misir arasındakı sərhədi nəzarətə götürdü

***İsrail qüvvələri (IDF) Qəzza zolağı ilə Misirin bütün sərhədi boyunca Filadelfiya dəhlizi kimi tanınan ərazilərə nəzarəti ələ keçirib.***

"Unikal" xəbər verir ki, bu barədə İsrail Müdafiə Qüvvələrinin mətbuat xidmətinin rəhbəri, briqada generalı Daniel Həqari məlumat verib.

"Filadelfiya dəhlizi HƏMAS üçün həyat xətti rolunu oynayırdı, HƏMAS mütəmadi olaraq Qəzza zolağına qaçaqmalçılıq yolu ilə silah aparırdı", - deyə İDF sözçüsü mətbuat brifinqində bildirib.

Həqarinin sözlərinə görə, Fələstin hərəkatı sərhəddən 10-40 metr aralıda istehkamlar tikib ki, İDF Misir ərazisinə zərbə endirmək qorxusundan onlara zərbə endirməsin.

"Hazırda qoşunlarımız Filadelfiya dəhlizi ərazisində 20-yə yaxın tunel aşkarlayıb. Biz bu tunelləri zərərsizləşdirəcəyik", - o əlavə edib.

***Gülayə Mecid***

17_27 IYUl-QARA.qxd 5/30/2024 9:48 PM Page 16



# "Neftçi" və "Sabah" cərimələndi

***AFFA İntizam Komitəsi "Neftçi" klubunu 10300, "Sabah"ı isə 13700 manat cərimələyib.***

"Unikal" xəbər verir ki, buna tərəflər arasında Premyer Liqanın XXXVI turunun matçında yaşananlar səbəb olub.

"Ağ-qaralar"ın futbolçusu Dieqo Valdes görüşün sonlarında təcavüzkar davranışa görə birbaşa qırmızı vərəqə aldığı üçün 4 oyun cəzalanıb, paytaxt təmsilçisini 3000 manat ziyana salıb.

"Neftçi"nin istefaya göndərilən baş məşqçisi Miodraq Bojoviç hakimləri təhqir etdiyi üçün 5 matçlıq diskvalifikasiya edilib, klub isə buna görə 4000 manat ödəməli olacaq.

Komandanın azarkeşləri meydana kənar əşyalar atdığına görə Bakı klubu 800 manat cərimələnib. Fanatların rəqibin ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirildiyinə görə isə əlavə



1000 manat cərimə kəsilib. Tərəflərin pirotexniki vasitədən istifadəsi ilə əlaqədar isə "Neftçi" 1500 manatından keçməli olacaq.

Bundan əlavə, "Sabah"ın futbolçusu Kahim Parris təcavüzkar davranışa görə ikisi şərti olmaqla 4 oyunluq cəza alıb. "Bayquşlar" 4000 manat cərimə edilib. Oyunçuya üç ay sınaq müddəti təyin olunub. Qonaqların digər legioneri Con İrasabal üçü şərti olmaqla 4 matçlıq diskvalifikasiya ilə üzləşib. Klub isə bu səbəbdən 3000 manat ödəyəcək. Abdulax Xaybulaev da eyni səbəbdən 4 oyunluq cəza alanların sırasına qoşulub və "Sabah"ı 3000 manat ziyana salıb.

Üç futbolçusu qırmızı vərəqə gördüyü üçün Premyer Liqa təmsilçisi əlavə 3000 manat ödəyəcək. Digər 4 oyunçusu sarı vərəqə ilə cəzalandırıldığına görə isə 700 manatından keçməli olacaq.

Qeyd edək ki, rəqibini 1:0 hesabı ilə üstələyən "Sabah" UEFA Konfrans Liqasına vəsiqə qazanıb.

# "Mançester Yunayted" üçün 5 transfer qaydası qoydu

***"Mançester Yunayted"in sahibi Cim Ratkliff klub üçün 5 transfer qaydası müəyyən edib.***

QOL.az xəbər verir ki, bu barədə "The Sun" məlumat deyib. Ratkliffin qaydalarına əsasən, yeni transferlər üçün maksimum yaş həddi 25 yaşdır. O, klubun ulduz futbolçuları transfer etməyini istəmir. Həmçinin komandanın oyun üslubunu texniki direktor Ceyson Uilkox təyin edəcək.

Məşqçidən konkret oyunçu haqqında deyil, hansı mövqeyə futbolçu transferi edilməli olduğu soruşulacaq. Rəhbərlik məşqçiyə hər mövqe üçün üç oyunçu təklif edəcək.

Qeyd edək ki, 2023/2024 mövsümündə "Mançester Yunayted" İngiltərə Premyer Liqasında 60 xal toplayaraq 8-ci yeri tutub. Eyni zamanda, "qırmızı şeytanlar" finalda ölkə çempionu "Mançester Siti"yə 2:1 hesabı ilə qalib gələrək, İngiltərə kubokunun qalibi olublar.



# "Ailəm "Milan" azarkeşidir" - Mbappe

***Fransa millisinin 25 yaşlı hücumçusu Kilian Mbappe karyerasını İtaliyada davam etdirəcəyi təqdirdə yalnız "Milan"ı seçəcək.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə futbolçu özü açıqlayıb.

"Mən həmişə demişəm ki, bir gün İtaliyaya köçsəm, ancaq "Milan"da oynayacağam. Uşaqlıqda "Milan"ın böyük azarkeşi olmuşam. İndi də onların bütün oyunlarına baxıram. Mənim ailəm "Milan"ın azarkeşidir", - deyə o bildirib.



Qeyd edək ki, Mbappe iyunun 30-da azad agent kimi PSJ-dən ayrılacaq. Onun Real Madridlə 5 illik müqavilə imzalayacağı gözlənilir.

*Ağarza Elçinoğlu*

# Messi "İnter Mayami"ni xilas edə bilmədi

***Məşhur futbolçu Lionel Messinin də formasın geyindiyi "İnter Mayami" MLS-də 17-ci tur oyununa çıxıb.***

Komanda evdə "Atlanta Yunayted"lə üz-üzə gəlib. Görüşdə qonaqlar 3:1 hesablı qələbə qazanıblar.

Messi bu oyunda meydana start heyətdə çıxıb və sonadək oynayıb. Komandasının yeganə qolunu da 62-ci dəqiqədə Messi vurub.

Qeyd edək ki, "İnter Mayami" hazırda MLS-in turnir cədvəlində 34 xalla liderdir.

"İnter Mayami" - "Atlanta Yunayted" - 1:3

Qollar: Messi, 62 - Lobjanidze, 44, 59, Tjare, 73



# Avro-2024-də Almaniya millisinin əsas qapıçısı kim olacaq?

***Almaniya millisinin baş məşqçisi Yulian Naqelsmann Avro-2024-də millinin əsas qapıçısının kim olacağı haqda danışıb.***

QOL.az xəbər verir ki, o, mətbuat konfransında deyib: "Ter Ştegenə dedim ki, şadam ki, ikinci dünya səviyyəli qapıçımız var. Manuel



Noyer əsas oyunçu olacaq".

Qeyd edək ki, Avropa çempionatı Almaniyada, iyunun 14-dən iyulun 14-dək keçiriləcək. Qrup mərhələsində birinci və ikinci yeri tutan komandalar, həmçinin üçüncü yeri tutan dörd ən yaxşı komanda 1/8 finala yüksələcək.



## "Olimpiakos" Konfrans Liqasının çempionu oldu

***UEFA Avropa Konfrans Liqasında 2023-2024-cü illər mövsümünün qalibi bəlli olub.***

"Unikal" xəbər verir ki, Yunanıstanın paytaxtı Afina şəhərində yerləşən "AEK Arena"da oynanılan final görüşündə yerli komanda "Olimpiakos"la İtaliya təmsilçisi "Fiorentina" üz-üzə gəlib. Görüş ev sahiblərinin 1:0 hesablı qələbəsi ilə yekunlaşıb.

"Olimpiakos"a kuboku gətirən qələbə qoluna 116-cı dəqiqədə Ayub El-Kabi imza atıb.

## Arda Gülərin transfer dəyəri açıqlandı

***Beynəlxalq İdman Araşdırmaları Mərkəzi (CIES) futbol dünyasının ən bahalı 100 futbolçusunun siyahısını açıqlayıb.***

"Unikal" xəbər verir ki, türk milli futbolçusu Arda Gülər sözügedən siyahıda 90-cı yerdə qərarlaşıb.

"Real Madrid" də çıxış edən Arda Gülər siyahıda yeganə türk olub. Futbolçunun transfer dəyəri 67,9 milyon avro olaraq müəyyənləşib. Ən bahalı ad isə 280,4 milyon avro dəyərində Jude Bellingham olub.

*Zərifə Nağıyeva*

## Dünya çempionumuzdan təsnifat turnirində qələbə

***Azərbaycan boksçusu Alfonso Dominqes Tailandın paytaxtı Banqkokda keçirilən II Dünya Olimpiya Təsnifat Turnirində növbəti qələbəsini qazanıb.***



"Unikal" xəbər verir ki, 92 kq çəkidə qüvvəsini sınayan yığma üzvü 1/16 finalda Marko Çaçiki (Xorvatiya) məğlub edib. Dünya çempionu rəqibinə 5:0 (30:27, 30:27, 30:26, 30:27, 30:27) hesabı ilə qalib gəlib.

Dominqes 1/8 finalda Sanjit Sanjitlə (Hindistan) üz-üzə gələcək. Görüş mayın 31-də baş tutacaq.

Qeyd edək ki, bu gün Məhsəti Həmzəyeva (57 kq) da rinqə çıxacaq.